YENİ MÜSAVAT
www.musavat.com
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 iyul 2019-cu il Çərşənbə axşamı № 158 (7328) Qiymәti 60 qəpik

**Xəbər**

**Qurbanlıq qoyunlar Bakıya gətirilir - qiymətlər**

yazısı səh.12-də

**Gündəm**

**Müdafiə Nazirliyindən MİQ-29 açıqlaması: "Axtarışlar davam edir"**



Pilotun yaxınları müdafiə naziri Zakir Həsənovla görüşüblər; **Qabil Hüseynli:** "Ümidliyik..."

yazısı səh.3-də

**ABŞ və İran arasında "vur, vurum" siyasəti**

yazısı səh.9-da

**Qalmaqallı videoya görə tənqid olunan hakim danışdı**

yazısı səh.14-də

**DYP maşınlarının maketi yollara çıxarılır - reaksiyalar**

yazısı səh.13-də

*Politoloq:*
**"Terror xoxanı görəvini "Əl-Qaidə"yə verirlər"**

yazısı səh.11-də

**"Yol terroru"nun əsas səbəbi - yüksək sürət və...**

yazısı səh.6-da

**AzTV-dəki dəyişikliklər müzakirəyə səbəb oldu**

yazısı səh.3-də

**Rusiyada müxalifətin şənbə etirazları - Kremlin anti-inqilab planı varmı?**

yazısı səh.5-də

**Vaşinqton Azərbaycanı qorumaq üçün hərəkətə keçib - pərdəarxası məqamlar**

yazısı səh.7-də

**Yenidən ailə qurduğuna görə tənqid olunan tanınmışlar - səbəb nədir?**

yazısı səh.10-da

**Bakı-Quba yolunda təmir başlayır - amma günahkarlar cəzasız qalır**

yazısı səh.4-də

# KREML QARABAĞ ÜZRƏ KURATORUNU DƏYİŞİR, BAKI VƏ İRƏVAN İSƏ...

Rusiyanın Ermənistandakı keçmiş səfiri yeni vəzifəyə gətirilir, Paşinyan təhlükəsizlik konsepsiyasını dəyişir, Fransa isə Azərbaycanla hərbi əməkdaşlığı gücləndirir - mühüm gəlişmələr



yazısı səh.8-də

## Xəzərin altında nələr baş verir - qətliam kimi boğulmalar haqda sensasion versiyalar

Suya girən hər kəs ayaqlarının sanki dənizin içərilərinə tərəf çəkildiyini hiss edir; Xəzər sahillərinin zəbti vətəndaşları uyğun olmayan çimərliklərə yönləndirir...

yazısı səh.14-də



**Qurban Qurbanovun ispandilli "Qarabağ" sınağı...**

yazısı səh.15-də



**Cahangir Hacıyevə 17 il həbs tələbi**

yazısı səh.6-da



Murad Quliyev

**Atasının imtina etdiyi nazir oğlu intihar etmək istəyibmiş**

yazısı səh.7-də



## Novruz Məmmədov “Şərəf Legionu” ordeni ilə təltif edildi

**Baş nazir Novruz Məmmədov Fransa Respublikası Prezidentinin fərmanı ilə “Şərəf Legionu” ordeninin zabit dərəcəsi ilə təltif edilib.**

Nazirlər Kabinetinin mətbuat xidməti bildirir ki, baş nazirə ordeni Fransanın Bakıda səfərdə olan İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Mer hökumət adından təqdim edib. Fransız dilinin, ədəbiyyatının peşəkar tədqiqatçısı Novruz Məmmədov bu ali mükafata Azərbaycan-Fransa əməkdaşlığına verdiyi töhfəyə görə layiq görülüb. Bu xoş xəbəri çatdırmaqdan məmnun olduğunu bildirən nazir Brüno Lö Mer, ölkəsinin baş nazir Novruz Məmmədova xüsusi hörmət və ehtiramı olduğunu vurğulayıb.

Baş nazir Novruz Məmmədov isə öz növbəsində bu ali mükafata layiq görüldüyünə görə Fransa dövlətinə və fransız xalqına minnətdarlığını bildirib.

“Şərəf Legionu” ordeni 1802-ci mayın 19-da Napoleon Bonapard tərəfindən təsis edilib. Fransanın ən yüksək dövlət mükafatı olan “Şərəf Legionu” ordeninin 5 dərəcəsi var. Fransa Respublikası və onun xalqı qarşısında xüsusi xidmətləri olan şəxslərə verilən “Şərəf Legionu” ordeninin zabit dərəcəsinə indiyədək dünyanın bir çox görkəmli insanları layiq görülüb.

## Ermənilər üzərində “Hərbi tibbi yardım” sözləri yazılan UAZ-ı atəşə tutub

**Azərbaycan-Ermənistan dövlət sərhəddində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam etməkdədir.**

Bu barədə “Report”a Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib.

İyulun 28-i saat 22:00 radələrində döyüş mövqelərimiz və arxa istiqamətdə hərəkətdə olan hərbi nəqliyyat vasitələrimiz düşmən tərəfindən növbəti dəfə atəşə tutulub.

Düşmən snayperləri tərəfindən açılan güllələr üzərində “Hərbi tibbi yardım” sözləri yazılan və qızıl aypara nişanının təsviri olan UAZ markalı avtomobilə dəyib.

Düşmən snayperlərinin atəş nöqtələri cavab atəşilə susdurulub.

## ABŞ Milli Kəşfiyyatının rəhbərini istefaya göndərmək istəyirlər

**ABŞ prezidenti Donald Tramp ölkənin Milli Kəşfiyyatının rəhbəri Den Koutsu dəyişməyə hazırlaşır. Bu barədə “Axios” nəşri məlumat yayıb. Buna səbəb kimi Koutsla ABŞ prezidenti Donald Tramp arasında olan fikir ayrılığı göstərilib.**

Nəşr Trampın həmin vəzifəyə özünün qatı tərəfdarı olan respublikaçı konqresmen Con Retkliffi gətirmək niyyətində olduğunu yazıb.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Müsavatçı fəal aclıq aksiyası keçirir-hüquq müdafiəçisi çağırış etdi

**Mehman Sadıqov:** “Qeyd etdiyiniz məhbus aclıq aksiyası keçirirsə...”
**Səidə Qocamanlı:** “Biz onun azadlığı uğrunda mübarizəmizi aparırıq”

**Həbsdə olan müsavatçı fəal Azad Həsənov bir həftədən çoxdur ki, aclıq aksiyası keçirir. İyulun 29-da onun növbəti məhkəmə prosesi keçirilib. Məhkəmədən sonra Müsavat başqanı Arif Hacılı mətbuata açıqlamasında bildirib ki, proses zamanı Azad Həsənovdan aksiyanı dayandırmağı xahiş etsələr də, o sona qədər aksiyanı davam etdirəcəyini bəyan edib.**

Məsələyə Ədliyyə Nazirliyi Penitensiar Xidmətin mövqeyini öyrəndik. **Qurumun mətbuat xidmətinin rəhbəri Mehman Sadıqov** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, aclıq aksiyası keçirmək hər bir məhbusun hüququdur: “Bununla bağlı lazımi prosedurların hər biri həyata keçirilir. Yəni məhbus rəsmi ərizə ilə həbsxana rəhbərliyinə müraciət edir, aclıq aksiyasının səbəblərini göstərir. Bundan sonra həbsxana rəisi göstəriş verir və aksiya keçirən məhkum digər məhkumlardan təcrid olunur. Eyni zamanda həmin məhbus həkim nəzarətinə götürülür. Bunlar adi qaydada praktikada qəbul olunmuş normalardır. Hər zaman bu qaydalara riayət olunur. Bu, ümumi qəbul olunmuş, tələb edilən qaydalardır. Əgər doğrudan da qeyd etdiyiniz məhbus aclıq aksiyası keçirirsə, nəzərdə tutulan bütün tədbirlər həyata keçiriləcək”.



**Hüquq müdafiəçisi Səidə Qocamanlı:** “Azad Həsənov xəstə atasını ziyarət etmək üçün Azərbaycana gəlib və burada həbs olunub. Bu xəbəri eşidəndə çox məyus oldum. Çünki anlayıram ki, ata və ana olmaq nə deməkdir. Əgər onun atası xəstədirsə, çətin olar ki, bu vəziyyətdən çıxmağa oğlunun həbsi imkan versin. Əksinə, bu onun xəstəliyini daha da mürəkkəbləşdirəcək. Ona görə də bu məqamları mütləq nəzərə alıb, onu azadlığa buraxmaq lazımdır. Biz bu işlə məşğuluq. Sizin bu yazınızdan istifadə edərək, Monitorinq Qrupumuz adından müraciət edərək, Azad Həsənovdan xahiş edirəm ki, aclıq aksiyasını dayandırsın. O gəncdir, həyatı irəlidədir, atasına və əzizlərinə çox lazımdır. Ən çox bunun üçün aksiyanı dayandırsın. Biz ola bilər ki, kiməsə bu barədə nəsə deməyək. Amma hər kəs əmin olsun ki, biz onun azadlığı uğrunda mübarizəmizi aparırıq. Çox təəssüflər olsun ki, onun yanına gedə bilmirik. Çünki bizi həbsxanaya buraxmırlar. Amma öz növbəmizdə onunla bağlı müraciətlər hazırlamışıq. Yaxın günlərdə bu müraciətləri göndərəcəyik. Sadəcə, iyulun 29-da olan məhkəməni gözləyirdik. Məhkəmə baş tutdu və bu bizə imkan verir ki, onun üçün hansısa bir müsbət hərəkət edək, azadlığa buraxılmasına nail olaq”.

Qeyd edək ki, Litvada mühacir statusu olan A.Həsənov 2018-ci il oktyabrın 11-də ağır vəziyyətdə olan atasını görmək üçün Bakıya qayıdıb və bundan bir neçə saat sonra yaşadığı Hövsan qəsəbəsində həbs edilib. O, külli miqdarda narkotik maddə saxlamaqda ittiham olunur.

❑ **Cavanşir ABBASLI**
**“Yeni Müsavat”**

## Boks üzrə çempionun ölümü ilə nəticələnmiş qəzanın iştirakçısı məhkəmə qarşısında

**Bakı Ağır Cinayətlər Məhkəməsində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törətməkdə ittiham olunan Quba rayonu, Rustov kənd sakini 40 yaşlı Ramil Seyidəhmədovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Məhkəmə baxışı avqustun 9-na təyin edilib.

Dəhşətli qəza bu il yanvarın 10-da Quba-Xaçmaz yolunun Zərdabi qəsəbəsi ərazisindən keçən hissəsində baş verib. Belə ki, 40 BS 143 dövlət nömrə nişanlı “VAZ 21010" markalı avtomobil 40 BL 944 dövlət nömrə nişanlı "Ford" markalı avtomobillə toqquşub. Qəza nəticəsində Xaçmaz sakinləri - Coşqun Qasımov, Zakir Abbasov və Nahid Tanrıverdiyev ölüb.

Hadisə zamanı R.Seyidəhmədov müxtəlif dərəcəli bədən xəsarətləri ilə Quba Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Qeyd edək ki, mərhum Ç.Qasımov boks üzrə yeniyetmələr üzrə Azərbaycan çempionu olub.

## 5 ölkə neft bazarına nəzarət üçün yeni birlik yaradır

**İran, Türkiyə, Rusiya, Çin və Hindistan neft bazarına nəzarət etmək üçün yeni birlik yaradır.**

AzərTAc xəbər verir ki, bunu Tehran Ticarət Palatasının enerji komissiyasının rəhbəri Rza Pedidar bəyan edib.

O, Beynəlxalq Enerji Agentliyinin neft bazarı və ölkələrin iqtisadi vəziyyəti ilə bağlı nəşr etdiyi hesabatında İran, Türkiyə, Rusiya, Çin və Hindistanın neft bazarına nəzarət etmək üçün yeni birlik yaratmağa başladıqlarını və dünya neft bazarında yeni iqtisadi halqanın formalaşdığını qeyd edib. Bildirib ki, BP-nin cari il üzrə qlobal enerjinin vəziyyəti ilə bağlı məlumatlarına görə, qalıq yanacaq növləri qlobal enerji istehlakının 84,7 faizini təşkil edir. ABŞ isə neft, təbii qaz və kömür istehsalına görə dünyada birincidir.

Çinin də neft istehsala görə yaxşı mövqedə qərarlaşdığını deyən R.Pedidar qeyd edib ki, ABŞ bu il ən böyük təbii qaz istehsalçısına çevrilib. Kanada, Çin və Norveç isə qlobal enerji istehsalçılarının ilk onluğunda qərarlaşıb.

## 300 avtobus Bakıya nə vaxt gətiriləcək?

**“Türkiyənin ”BMC Otomotiv Sanayi ve Ticaret" AŞ şirkətindən alınan 300 avtobusun hamısı avqustda Bakıya gətirilməyəcək".**

Bunu modern.az-ın sorğusuna cavab olaraq **Bakı Nəqliyyat Agetliyinin mətbuat katibi Mais Ağayev** bildirib.

M.Ağayev qeyd edib ki, avtobusların bir hissəsi avqustda Bakıda olacaq:

“Digərləri isə hissə-hissə ilin sonunadək ölkəyə gətiriləcək”.

M.Ağayevin sözlərinə görə, hazırda Bakı şəhərində müntəzəm marşrut xətləri üzrə təxminən 2000-2020 ədədə yaxın avtobus gündəlik olaraq sərnişinlərə xidmət göstərir:

“Yeni avtobusların gətirilməsindən sonra Bakıdakı avtobus parkının xeyli hissəsi yenilənmiş olacaq. Yeni avtobusların uzunluğu 12 və 18 metrdir”.



## “Sarı zolaq”a görə nə qədər sürücü cərimələndi?

**“İyulun 21-dən 27-nə qədər ”sarı zolaq"la əlaqəli bir neçə faktı çıxmaqla sürücülərə inzibati protokol tərtib edilməyib".**

Bu sözləri modern.az-a açıqlamasında **Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov** deyib. V.Əsədov bildirib ki, aparılan təbliğat işləri öz təsirini göstərdi.

“Bu məsələlərdə maarifləndirmənin rolu böyükdür. Ölkədə keçirilən digər tədbirlər kimi "Bakı-2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalı da yüksək səviyyədə keçirildi. Yol hərəkəti ilə bağlı heç bir problem qeydə alınmadı, polis gücləndirilmiş iş rejimində işlədi. Mətbuatımız da təbliğat işlərinin aparılmasında bizə çox böyük dəstək oldu. Görülən işlərin mahiyyəti göz qabağındadır".

Xatırladaq ki, “Bakı-2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalı ilə əlaqədar olaraq iyulun 21-dən Bakının bəzi küçə və prospektlərində sarı zolaq qadağası qoyulmuşdu. XV Avropa Gənclər Yay Olimpiya Festivalı iyulun 21-də başlayıb və iyulun 27-də başa çatıb.

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019





# Müdafiə Nazirliyindən MİQ-29 açıqlaması: "Axtarışlar davam edir"

## Pilotun yaxınları müdafiə naziri Zakir Həsənovla görüşüblər; **Qabil Hüseynli:** "Ümidliyik..."

**İyulun 24-ü axşam saatlarında təlim-məşq uçuşları keçirən zaman Xəzər dənizinə düşən Hərbi Hava Qüvvələrinin "MİQ-29" təyyarəsinin və pilotun axtarışları davam edir. Bu barədə "Yeni Müsavat"a Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı bildirib.**

Qeyd edək ki, təyyarənin pilotu, polkovnik-leytenant Rəşad Atakişiyevin qayınatası, politoloq Qabil Hüseynli də mətbuata açıqlamasında axtarışların davam etdiyini deyib. "Axtarışlar hərtərəfli aparılır. Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Hərbi Hava Qüvvələri, Dövlət Sərhəd Xidmətinin heyəti axtarışlar aparırlar", – deyən Q.Hüseynli axtarışların nəticə verəcəyinə ümid etdiklərini bildirib. Politoloq deyib ki, axtarışlara müdafiə naziri, general-polkovnik Zakir Həsənov şəxsən nəzarət edir.

"Axtarış zonasının əhatə dairəsi xeyli kiçilib". Q.Hüseynli bunu Lent.az-a açıqlamasında söyləyib. O bildirib ki, təyyarənin düşdüyü ehtimal olunan əhatə dairəsinin eni 20 km, uzunluğu 25 km müəyyənləşdirilib: "Ehtimal edilən yerin xeyli hissəsi axtarılıb və iş görülüb. Bəlkə də obyektin düşdüyü yerə yaxınlaşılıb. Əgər bu gün belə təyyarə tapılsa, onun çıxarılması 2-3 gün vaxt alacaq. Çünki təyyarə qumun içərisinə girib və üstü qum ilə örtülüb. Bu, samanlıqda iynə axtarılan kimi bir şeydir".

"Cənab nazir Zakir Həsənovla görüşün detalları barədə bir söz deyə bilmərəm. Bub sırf texniki məsələdir. Onu deyə bilərəm ki, çox sürətli və səmərəli axtarış işləri aparılır". Bunu Modern.az-a açıqlamasında Qabil Hüseynli deyib. "Ümidim var ki, çox yaxın vaxtlarda nəticələr ortaya qoyula bilər. Ailəsi olaraq hələ də Rəşad Atakişiyevin sağ qaldığına ümidliyik. Çünki ümid son anda ölür. Ümidimizi Allaha tapşırmışıq"-Q.Hüseynli bildirib.



Qeyd edək ki, iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin MİQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. Təyyarə Xəzər dənizinə düşüb.

Qəzaya uğramış hərbi təyyarənin pilotunun ailə üzvləri və yaxınları təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə yaradılan əməliyyat qərargahında müdafiə naziri Zakir Həsənov ilə görüşüblər.

Görüş zamanı pilotumuzun yaxınları "Təki, Vətən sağ olsun! Övladımızın xidməti ilə şərəf duyuruq!" deyərək, göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

MİQ-29 hərbi təyyarələri Azərbaycanın əsas döyüş təyyarələridir. Azərbaycan bu təyyarələri müxtəlif illərdə Ukraynadan alıb. Bu təyyarələr keçmiş SSRİ-də istehsal olunurdu. Deməks olar ki, həmin təyyarələr köhnəlib, bir çox ölkələr, hətta Rusiyanın özü daha modern təyyarələrin istehsalına üstünlük verir. Ona görə də son qəzadan sonra Azərbaycanda belə fikirlər səslənir ki, MİQ-29 təyyarələrindən imtina etmək lazımdır. Çünki Azərbaycanda olan MİQ 29 təyyarələrindən 2-si artıq qəzaya uğrayıb. Demək qəzalar davam edə bilər. Təsadüfi deyil ki, son qəzadan sonra Azərbaycan Hərbi Hava Qüvvələri MİQ-29-un uçuşlarını dayandırıb.

**Bəs qəza ehtimalı yüksək olan MİQ-29-un istifadəsi ölkəmizdə birdəfəlik məhdudlaşdırıla bilər?**

**Hərbi ekspert Üzeyir Cəfərov** modern.az-a açıqlamasında bildirib ki, , MİQ-29-un istifadədən çıxarılması bizə ziyan gətirə bilər.

"Dünyada ümumi qəbul edilmiş qayda var ki, ölkənin hava məkanında istifadə olunan təyyarələrdən biri qəzaya uğrayırsa, həmin modifikasiyadan olan təyyarələrin hamısının uçuşu müvəqqəti dayandırılır. Azərbaycanda da qayda tətbiq olunur. MİQ-29 qəzaya uğradıqdan sonra bu təyyarələrin uçuşunun dayandırılmasına səbəb digər növlərdə də eyni nasazlığın yaranmasının qarşısını almaqdır. MİQ-29-un təkrar istifadə edilib-edilməməsinə isə komandanlıq qərar verəcək. Belə hesab edirəm ki, həmin təyyarələr hələ Azərbaycana xeyir verə bilər. Bir müddət sonra, yəqin ki, onlar istismardan çıxarılacaq, çünki daha yeni növ təyyarələr alınır. Hansı ölkələrin ki, hərbi sənayesi inkişaf edir, məsələn, İtaliya, Fransa, Pakistan kimi ölkələrdən yeni növ təyyarələrin alınması ilə bağlı danışıqlar aparılır. Birdən-birə MİQ-29-un istifadədən çıxarılması bizim ziyanımızadır. Çünki onların bəziləri hazırda döyüş tapşırırğını, növbətçiliyi yerinə yetirir".

Qeyd edək ki, Müdafiə Nazirliyinin yaydığı məlumata görə, iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin (HHQ) MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. İlkin ehtimala görə, aviasiya qəzası nəticəsində hərbi təyyarə Xəzər dənizinə düşüb. Pilotun axtarışı və xilas edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir. Müdafiə nazirinin tapşırığına əsasən, yaradılan komissiya qəzanın səbəblərinin araşdırılmasına başlayıb.

❑ **ELŞAD,**
**"Yeni Müsavat"**

# AzTV-dəki dəyişikliklər müzakirəyə səbəb oldu

## Yeni rəhbərliyin addımları əsasən təqdir edilir, ancaq...

**Arif Alışanovun AzTV rəhbərliyindən getməsindən sonra telekanalın yayım siyasətinin müsbətə doğru dəyişəcəyinə dair fikirlər səslənməkdə idi. Artıq bu istiqamətdə müzakirələr daha da intensivləşir. Sədr əvəzi Rövşən Məmmədovun bu sahədə bir çox yeniliklərə imza atması ictimaiyyət tərəfindən də müsbət qarşılanıb.**

Uzun illərdir bu telekanalın Sovet dövründən qalmış ənənələrdən kənara çıxmaması, yeniliklərlə ayaqlaşmaması onun haqqında bir stereotip yaratmışdı ki, hazırda bu stereotip dağılmaq üzrədir. AzTV-nin dəyişəcəyinə ümidlər artıb. **Son olaraq, millət vəkili Qənirə Paşayeva** bu barədə yazıb və "AzTV-nin həyatında yeni mərhələ başlayıb", - deyə fikir irəli sürüb.

Q.Paşayevanın sözlərinə görə, efirin siması, demək olar ki, büsbütün dəyişib, televiziyada böyük canlanma yaranıb: "Qısa müddətdə belə dəyişikliklərə nail olmaq önəmli uğurdur və ümid edirəm ki, uğurlar artacaq. Bir sözlə, görünən odur ki, uzun sürən durğunluq dövrü başa çatıb və AzTV-nin həyatında yeni mərhələ başlanıb. Yeni mərhələ isə özündə yeniləşmə, müasirləşmə və yüksək zövq ehtiva edir. Efir dinamikasına nəzər salan hər kəs bunun canlı şahidi olur. Burada xüsusi qeyd ediləsi məqamlardan biri də təqdim olunan yeni verilişlərdir. Təbii ki, böyük zəhmət və gərgin fəaliyyət tələb edən verilişlərin ərsəyə gəlməsi, efirin yüksək zövqlə təqdimatı həm də mənəvi-psixoloji amillə birbaşa bağlıdır. Şübhəsiz ki, sağlam mühit yaradıcılıq imkanlarını artırır, yeni-yeni ideyalara yol açır. Xüsusilə ictimai-siyasi proqramları qeyd etmək istəyirəm. AzTV son 6 ayda müsbətə doğru çox böyük addımlar atıb və bunu görməmək, sadəcə, mümkün deyil. AzTV-dəki həmkarlarıma bundan da böyük uğurlara imza atmalarını diləyirəm".

**Milli Məclisin üzvü Fəzail Ağamalı** da "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, AzTV-nin yayım siyasətində həqiqətən də dəyişiklik hiss olunur, bunu danmaq olmaz: "Həm interyer baxımından, həm verilişlərin təqdimatı və keyfiyyəti baxımından, həm yeni verilişlərin efirə buraxılması, həm də aparıcıların tamam başqa bir görkəmdə, daha müasir tərzdə veriliş aparması nəzərə çarpır. Bu, alqışlanmalıdır. AzTV Azərbaycanın ən qədim telemәkanıdır, böyük auditoriyası var və təkcə Azərbaycan sərhədləri ilə məhdudlaşmır. Ölkəmizdən kənarda yaşayan 50 milyon soydaşımız bu kanalda yayımlanan verilişlərə böyük maraqla baxır. AzTV-nin rus və ingilis dillərində olan verilişləri də xarici auditoriyaya çıxır, Azərbaycan həqiqətlərinin təqdimatında öz mühüm rolunu oynayır. Rövşən Məmədov sədr vəzifəsini icra edəndən yenilikların şahidi oluruq. Arzu edirik ki, bu yeniliklər bununla məhdudlaşmasın, müasir dövrlə səsləşən proqramlar ekrana gətirilsin. Vətənpərvərlik verilişləri, işğal olunmuş torpaqlarımızın azad olunması ilə bağlı keyfiyyətli ekran işləri ortaya qoyulsun. Tarixi həqiqətlərin dünyaya çatdırılması, zaman-zaman ərazilərimizin parçalanması ilə bağlı verilişlər hazırlansın, təkcə daxili auditoriya üçün deyil, həm də xarici dillərdə dünya arenasına çıxsın".

Deputat təklif etdi ki, dünyanın məşhur telekanalları ilə AzTV-nin əlaqələri yaradılsın və Azərbaycan həqiqətləri ilə bağlı proqramlar o kanallar vasitəsilə də dünyaya, ayrı-ayrı ölkələrin ictimaiyyətinə çatdırılsın: "Təkcə siyasət deyil, Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadiyyatı ilə bağlı, gələcəyə yönəlmiş hədəfləri ilə bağlı verilişləri AzTV ekranlarında geniş ictimaiyyətə yayılsın".

**Deputat Asim Mollazadə** isə "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, AzTV-də dəyişikliklərə müəyyən cəhdlər edilir, ancaq həm ümumi, həm də texniki qeyri-peşəkarlıq göz qarşısındadır: "Çox ciddi dəyişiklərə ehtiyac var. Peşəkar islahatlar aparılmalıdır. Azərbaycan teleməkanı acınacaqlı vəziyyətdədir. Ölkənin informasiya mühiti ya Türkiyə, ya da Rusiya telekanallarının təsiri altındadır. Rusdilli əhali, ümumiyyətlə, Rusiya televiziyalarına baxır. Azərbaycan televiziya kanallarının qeyri-peşəkarlığı təəssüf doğurur".

Qeyd edək ki, mətbuatda Avropada yaşayan azərbaycanlıların da müraciətləri, açıqlamaları yayılıb. Onlar da xaricdə daimi olaraq izlədikləri AzTV kanalında son dəyişikliklərdən məmnun olduqlarını bildiriblər.

**"Paris Azərbaycan Evi"nin prezidenti Mirvari Fətəliyeva** bildirib ki, artıq AzTV bizim Azərbaycan həqiqətlərinin Avropada yayılması üçün qurduqları fəaliyyətdə bir tərəfdaşa çevrilib: "Bundan başqa, efirdə yeni və Avropa efirlərinə meydan oxuyacaq kreativ telelayihələrin nümayişə başlaması, vətənpərvər verilişlərin geniş yayılması qürbətdə yaşayan biz azərbaycanlıların ciddi formada stimul mənbələrindən birinə çevrilib".

**Polşa Azərbaycanlıları Birliyinin sədri Cavid Zeynalov** isə qeyd edib ki, bu gün artıq AzTV xaricdəki Azərbaycan lobbisinin və yaxud diasporunun tribunasına çevrilib: "Yeni kreativ verilişlər, xüsusilə səhər proqramları, "Nəsillərin debatı" kimi tok-şoular, siyasi verilişlərdə dinamiklik və ekspertlərin rəngarəngliyi bizi AzTV-nin ayrılmaz tamaşaçısına çevirib".

Mövzu ilə bağlı bir neçə media ekspertinə müraciət etsək ki, onlar, hələ ki, konkret nəticəyə gəlmək üçün tez olduğunu və bu sahədə qiymətləndirmə aparmaq üçün bir qədər zaman lazım olduğunu bildirdilər.

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**



# Avropa Birliyi ilə saziş imzalasaydıq...

**Hüseynbala SƏLİMOV**

**Türkiyə vətəndaşları üçün viza rejiminin ləğv olunması haqlı olaraq ölkədə çox böyük müzakirələrə səbəb oldu.**

Əslində çoxdan qəbul olunmalı olan bu qərar, ümumiyyətlə, viza problemini gündəmə gətirdi və media əhli bir daha müxtəlif ölkələrdəki viza rejimindən, bu sahədəki islahat və sadələşdirmələrdən, keçmiş sovet məkanının hansı ölkələrinin vətəndaşları üçün dünyanın daha açıq olmasından dəyərli yazılar yazdılar və Azərbaycanın bu sahədəki növbəti addımlarını gözdülər və belə qərarın İranla da qəbul edilməsinin zəruriliyini gündəmə gətirdilər.

Amma bir məsələ sanki diqqətdən qaldı. Bu da Avropa Birliyi ilə bəzi keçmiş sovet ölkələrinin imzaladığı assosiasiya sazişidir. Məsələn, qonşu Gürcüstan belə sazişi imzaladığından gürcülər Avropanın təxminən 30 ölkəsinə sadələşdirilmiş viza rejimi əsasında səyahət edə bilir. Heç sözsüz ki, belə vəziyyət həmin sazişi imzalamış Ukraynaya və Belarusa da şamil olunur.

Keçmiş sovet ölkələrinin arasında bu sahədə rekordçular isə artıq Avropa Birliyi üzvü olan Baltik ölkələridir. Məsələn, Litva vətəndaşları dünyanın 180 ölkəsinə viza almadan səyahət edə bilərlər.

Təəssüf ki, Azərbaycan hələ AB ilə nəinki assosiasiya sazişi, ümumiyyətlə, hər hansı saziş imzalamayıb və bu "igidliyinə" görə hazırda Belarusla bir cərgədə dayanır. Amma maraqlısı budur ki, üç GUAM ölkəsi AB ilə assosiasiya sazişi imzalayarkən bizim rəsmi Bakı da sanki "şeytanın qıçını sındıraraq" sadələşdirilmiş viza rejimi haqda xüsusi saziş imzalamışdı. Amma sonradan prosesin inkişafını görə bilmədik və məlum olmadı ki, sadələşdirilmiş viza rejimi bizim vətəndaşlar üçün işləyirmi və yaxud, heç olmasa, nə vaxtsa işləyəcəkmi?

O ki qaldı bizim Avropa Birliyi ilə assosiasiya sazişi, ümumiyyətlə, saziş imzalamağımıza, məsələ sanki düyünə düşübdü. Assosiasiya sazişi haqda, ümumiyyətlə, danışmağa dəyməz, çünki elə ilk anlardan məlum oldu ki, rəsmi Bakının bunun üçün nə cəsarəti, nə də həvəsi və yaxud da istəyi yoxdur.

Əlbəttə, əsas səbəb kimi Rusiyanın mümkün təzyiqləri dilə gətirilir və hətta bəzi siyasət və ictimaiyyət adamları belə iradlarda bulunurlar ki, guya AB ilə saziş imzalamaq bizə problemdən savayı heç nə verməyəcək, əvəzində Rusiya ilə münasibətlərdə sərinlik yaradacaq. Nə demək olardı bu xüsusda? Məsəl var, deyirlər ki, canavardan qorxan meşəyə getməz. Sazişin bizim vətəndaşlara verə biləcəyi üstünlüklərdən isə yazının lap əvvəlində yazdıq. O ki qaldı Rusiyanın təzyiqlərinə, hətta Ermənistan da, AB ilə assosiasiya sazişi olmasa da, hər halda əməkdaşlıq sazişi imzaladı və buna görə İrəvanda on iki bal gücündə zəlzələ olmadı və Kreml məsələnin üstündən sükutla keçdi.

Bakının AB ilə assosiasiya sazişi imzalamasını siyasi təhlilçilər hətta nəzəri olaraq müzakirə etmirlər, aydın məsələdir ki, rəsmi Bakı heç vaxt bu addımı atmaz, təkcə ona görə yox ki, Kremlin dəstəyini itirər, həm də ona görə ki, belə addım bizim hakimiyyətin maraqlarına cavab vermir, çünki AB ilə yaxınlaşmaq siyasi-iqtisadi islahat, avropalaşmaq səmtində mühüm addım deməkdir, bizim hakimiyyətin isə avropalı insanları idarə etmək sahəsində təcrübəsi yoxdur, üstəlik, bunu heç istəmir də, çünki hakimiyyətimiz üçün belə daha yaxşıdı.

Əlbəttə ki, biz bunu böyük təəssüf hissilə deyirik və Avropa ilə təmaslar məsələsində ölkəmizin Belarusla eyni cərgədə qərarlaşması ürək ağrısından savayı digər bir assosiasiya yaratmır.

Amma rəsmi Bakı AB-yə tamam yox da deyə bilmir və Şərq Tərəfdaşlığı proqramı çərçivəsində neçə illərdir ki, guya xüsusi bir strateji əməkdaşlıq sazişi bağlayacağını vəd edir. Hətta bu ilin mayında belə sazişin imzalanacağı güman edilirdi, fəqət, təxirə salındı və belə məlum oldu ki, guya müvafiq saziş payızda imzalanacaq, amma gəl ki, bu xüsusda hər hansı yəqinlik yoxdur, mümkündür ki, heç payızda da belə saziş imzalanmasın.

Odur ki, vaxtilə bizimlə "eyni bir köynəkdən çıxmış" ölkələrin - Ukraynanın, Gürcüstanın və Moldovanın vətəndaşlarının qazandıqlarını bizim insanlarımızın da qazanacağını, ən azı tezliklə qazanacağını düşünmək üçün elə bir əsas yoxdur, əksinə, Azərbaycan getdikcə daha çox tipik bir Şərq ölkəsinə çevrilir, nəinki Avropa ölkəsinə.

Şərq ölkəsi məsələsi də belədir ki, hələ Hegel yazırdı ki, Şərqdə heç vaxt insanlar əsl azadlığın nə olduğunu bilməyiblər.

Əlbəttə, biz belə kateqorik yanaşmanın tərəfdarı deyilik, amma böyük hesabla götürəndə bu sözlərdə böyük də həqiqət var: parlament, müasir, müstəqil məhkəmə sistemi, hesabatlı hökumət, insan haqlarının üstünlüyü -bütün bunlar bu gündək əksər Şərq ölkələri üçün əlçatmaz xəyallardı, hamısı da ona görə ki, Avropada Russodan və Monteksyödən başlanmış suverenlik adlı siyasi fəlsəfədən şərqli insanlar xəbərsizdir, onların heç ağlına da gəlmir ki, hakimiyyət deyilən məsələnin mənbəyi əslində cəmiyyətlər, xalqlar və yaxud da millətlərdir və dövlət özü ictimai müqavilənin bir formasıdır və odur ki, böyük məsələlərlə bağlı qərarı da onlar özləri verməlidirlər - demokratik seçkilər, referendumlar və plebistitlər yolu ilə...

---

**Bakı-Quba magistral yolu təmir olunur. Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 132 km-lik Bakı-Gəndob hissəsində yolun inşası zamanı yol verilən konstruktiv səhvlər, həmçinin avtomobil yolu ilə əsasən Qubadan Bakı şəhəri istiqamətində normadan artıq yüklənmiş yük maşınlarının hərəkəti nəticəsində yolun örtüyündə çatlar və dağılmış hissələr yaranıb.**

# Bakı-Quba yolunda təmir başlayır - amma günahkarlar cəzasız qalır

**Anar Nəcəfli:** "Hazırda aparılan işlər problemin həlli ilə bağlı çıxış yolu deyil. Bu yol əsaslı şəkildə yenidən qurulmalıdır"

**Vahid Əhmədov:** Gec-tez bu yola sərf edilən vəsaitin haraya və necə xərclənməsi, yolun niyə belə istifadəyə yararsız halda təhvil verilməsi araşdırılacaq, məsuliyyət müəyyən ediləcək"

**Əkrəm Həsənov:** "Əgər cinayət işi qaldırılsa, faktlar sübut olunsa, vəzifədən sui-istifadə və dövlət vəsaitini mənimsəmə tərkibi ilə həmin şəxslər cinayət məsuliyyətinə cəlb oluna bilər"



**"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyinin İctimaiyyətlə Əlaqələr Şöbəsinin rəisi Anar Nəcəfli** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, təmir işləri ilə bağlı xüsusi vəsait ayrılmayıb: "Yolların saxlanılması üçün dövlət büdcəsindən AAYDA-ya ayrılan vəsait hesabına bu yolun təmir-bərpa işləri həyata keçirilir. Sürücülərin müraciəti və vətəndaşların narahatlığından sonra biz bu istiqamətdə işlərə başladıq və agentlik olaraq buna biganə qala bilmərik. Orada vəziyyət həqiqətən də acınacaqlıdır. Təmir işləri davam edir, bir ərazidə bitdikdən sonra digər əraziyə keçirik. O baxımdan bu işlərin nə zaman bitəcəyi məlum deyil. Çalışacağıq ki, yoldakı problem minimuma endirilsin. Lakin ümumilikdə hazırda aparılan işlər problemin həlli ilə bağlı çıxış yolu deyil. Bu yol əsaslı şəkildə yenidən qurulmalıdır. Hazırda aparılan işlər, sadəcə, təmir-bərpa işləridir".

Yolda problemin yaranma səbəblərinə gəlincə, A.Nəcəfli etiraf etdi ki, tikinti zamanı konstruktiv səhvlər də olub: "Yol əsasən Gəndob istiqamətindən Bakı istiqamətində gələn hissədə dağılıb. Bu da normadan artıq yüklənmiş ağır yük maşınlarının hərəkəti səbəbindən baş verib. O istiqamətdən gələn yük maşınları yoldakı ümumi nəqliyyat vasitələrinin 63 faizini əhatə edir. Bu, çox böyük rəqəmdir. Xüsusən də Quba , Xaçmaz və Qusarda çay yataqlarında çınqıl karxanaları var. Tikinti materialları oradan daşınır. Bunun da təsiri olub və yoldakı problem daha da artıb".

Təmir-bərpa işləri yolun Şabran rayonu ərazisindən başlayaraq Siyəzən və Xızı rayonlarını keçməklə Bakı şəhəri istiqamətində aparılır.

Xatırladaq ki, Bakı-Quba-Rusiya avtomobil yolu ən bahalı tikinti layihələrindən biridir. Yolun tikintisinə 2008-ci ildən başlanılıb. Rəsmi məlumatlara görə, layihəyə ümumilikdə 600 milyon manata yaxın vəsait xərclənmişdi. Lakin son 10 ildə, demək olar ki, hər il bu yolun təmirə ehtiyacı yaranıb və mütəmadi bərpa işləri aparılıb. Halbuki keçmiş nazir Ziya Məmmədov 2009-cu ildə bu yolun istismar müddətinin 30 illik nəzərdə tutulduğunu bildirmişdi.

**Bəs, görəsən, yolun keyfiyyətsiz çəkilməsinə və baş verən yeyintiyə görə araşdırma aparılarsa, hüquqi məsuliyyət, cəza və həbslər ola bilərmi?**

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin üzvü Vahid Əhmədov** bildirdi ki, Bakı-Quba yolunun çəkilməsinə çox böyük məbləğdə vəsait xərclənib: "O yolu beton yolu adı ilə çəkdilər, sonradan məlum oldu ki, çox keyfiyyətsizdir. Həmin yolun qorunub saxlanılmasında da problemlər oldu. Çünki əks istiqamətdə, yəni Qubadan Bakıya ağır tonnajlı avtomobillər hərəkət edirdi. Bu da yolda problemlərin daha da artmasına səbəb oldu. Bu yolun hansı səbəbdən bu qədər keyfiyyətsiz olması araşdırılmalıdır. Biz də Milli Məclisdə bu məsələyə toxunmuşuq, müzakirələrimiz olub. Gec-tez bu yola sərf edilən vəsaitin haraya və necə xərclənməsi, yolun niyə belə istifadəyə yararsız halda təhvil verilməsi mütəmadi olaraq araşdırma obyekti olacaq, məsuliyyət müəyyən ediləcək. Yol çox biabırçı vəziyyətdədir. Qubadan Bakıya gələn istənilən maşın daha sonra təmirə getməlidir. Bu yola hazırda Avtomobil Yolları Dövlət Agentliyi nəzarət edir, təmir işləri aparılır. Ancaq yolun çəkilməsi zamanı xərclənən vəsaitin də haraya xərclənməsi araşdırılmalıdır, məsuliyyət və cəza mütləq olmalıdır".

**Hüquqşünas Əkrəm Həsənov** isə vurğuladı ki, məsuliyyət mütləq olmalıdır: "Ancaq belə cinayət işlərinin başlanmasını ya həmin yolu çəkən dövlət orqanının tabe olduğu daha yuxarı orqan məsələ qaldırmalıdır. Ya da Hesablama Palatası həmin dövlət orqanının fəaliyyətini yoxladıqdan sonra, bu faktları müəyyən etdikdən sonra Baş Prokurorluğa müraciət etməlidir. Və ya vətəndaşlar özləri bu prosesə müdaxilə etməli, özləri bu məsələni dövlət orqanları qarşısında qaldırmalıdırlar. İctimaiyyət nümayəndələri də, həmin dövlət qurumunun tabe olduğu quruma müraciət edib bu işin acımasını tələb edə bilər. Sadəcə, Azərbaycanda belə bir ənənə var ki, eyni yollar hər il təmir olunur. Həmin dövlət qurumları da bir-birinin işinə irad bildirmirlər. Əgər cinayət işi qaldırılsa, faktlar sübut olunsa, vəzifədən sui-istifadə və dövlət vəsaitini mənimsəmə tərkibi ilə həmin şəxslər cinayət məsuliyyətinə cəlb oluna bilər".

Ekspert bu cür hallarda mənimsəmə faktlarının araşdırılması və ictimai nəzarətin təmin olunması məqsədilə elektron dövlət büdcəsinin yaradılmasını təklif etdi: "Mən dəfələrlə belə təkliflə çıxış etmişəm ki, Azərbaycana elektron dövlət büdcəsi lazımdır. Elektron dövlət büdcəsi Dövlət Təhlükəsizlik Xidməti və Müdafiə Nazirliyi istisna olmaqla, digər bütün dövlət orqanlarının büdcəsi tam şəffaf olmalıdır, internetdə dərc olunmalıdır və aylıq əsaslarla yenilənməlidir. Adi qələm və kağızdan tutmuş, digər bütün alınan malların siyahısı dərc olunmalıdır. Bizim də ictimaiyyət olaraq onlara nəzarət etmək imkanımız olmalıdır".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 158 (7328) 30 iyul 2019

# Rusiyada müxalifətin şənbə etirazları-Kremlin anti-inqilab planı nə?

**Elçin Mirzəbəyli:** "Aksiyalardan sonra ABŞ və müttəfiqlərin Rusiyaya qarşı ritorikaları daha da sərtləşib"

**Tofiq Abbasov:** "Hakimiyyət qarşıdurma meyili ilə bağlı həssas durumda olmağa məcburdur"

**Sentyabrın 8-də Moskva Şəhər Dumasına keçiriləcək seçkiyə bir sıra müxalif siyasətçilərin buraxılmamasına etiraz olaraq ötən şənbə Rusiya paytaxtında genişmiqyaslı etiraz aksiyası keçirilib. Aksiyada 20 mindən çox şəxsin iştirak etdiyi iddia olunur.**



Yayılan məlumata görə, Rusiya paytaxtında keçirilmiş etiraz yürüşünün Moskva polisi tərəfindən dağıdılması zamanı 1000-dən çox iştirakçı saxlanılıb. Moskva meriyası binası qarşısında keçirilən aksiyanı dağıdarkən polis əməkdaşları etirazçılara qarşı dəyənəklərdən istifadə ediblər.

Aksiya iştirakçıları müxalifətçi namizədlərin seçki bülletenlərindən çıxarılması əleyhinə etiraz bildirmək üçün yürüşdə iştirak ediblər. Müxalifət hesab edir ki, namizədlərinin seçki bülletenlərindən çıxarılması siyasi motivlərə görə edilib. Bu barədə BBS Azərbaycanca xəbər yayıb. Məlumatda deyilir ki, sentyabrın 8-də keçiriləcək Moskva şəhər dumasına seçkilərdə iştirak etmək üçün namizədliklərini irəli sürən bəzi müxalifətçi fəallar bundan bir qədər əvvəl həbs olunublar. Rəsmilər təxminən 30 namizədin adını bülletenlərdən çıxararaq bildiriblər ki, həmin namizədlər qeydiyyatdan keçmək üçün tələb olunan sayda imza toplaya bilməyiblər. Moskvada keçirilmiş icazəsiz yürüşdə 1074 nəfərin həbs olunduğu bildirilib, müşahidəçilər isə 1127 nəfərin saxlandığını bəyan ediblər. Moskva meri Sergey Sobyanin aksiya iştirakçılarını "təhlükəsizliyə təhdid" adlandıraraq ictimai asayişin qorunacağını vurğulayıb.





Prezident Vladimir Putinin sərt tənqidçisi olan müxalifət lideri Aleksey Navalnı icazəsiz aksiyada iştirak etmək çağırışlarına görə çərşənbə günü 30 sutkalıq müddətə həbsə olunub. Xüsusi təyinatlı polis əməkdaşları Moskva meriyası binası qarşısına toplanmış etirazçı kütləsini dağıdaraq saxlanılanları polis məntəqələrinə aparıb. Etirazçılar arasında yaralananlar olub, təhlükəsizlik qüvvələri əməkdaşlarından isə azı iki nəfər gözyaşardıcı qazın təsirindən göz zədəsi alıb.

Həmçinin A.Navalnının saxlanıldığı Moskva xəstəxanası qarşısında toplanan aktivistləri polis saxlayıb (Axar.az). "Teleqram" sosial şəbəkəsində xəstəxana qarşısında toplanan 40 şəxsdən 10-nun saxlanıldığı bildirilib. Saxlanılanlar arasında "Dojd" televiziyası və "Snob" saytının jurnalistləri, eləcə də Sankt-Peterburqdan olan fotoqraf Georgi Markov da var. Navalnının özüylə bağlı isə sosial şəbəkələrdə müxtəlif ziddiyyətli xəbərlər paylaşılır. Navalnının tərəfdarları, o cümlədən onun yaxın ətrafı siyasətçi ilə bağlı heç bir məlumat ala bilmədiklərini bildirir.

Navalnı gözlənilmədən xəstəxanaya yerləşdirilib. Rəsmi açıqlamaya əsasən, o, kəskin allergiya keçirdiyi üçün səhhəti pisləşib və xəstəxanaya yerləşdirildikdən sonra vəziyyəti stabilləşib. Bəzi kanallar Navalnının yeni Yuşşenko ola biləcəyini, hökumətin baş verənləri gizlətməyə çalışdığı üçün payızda Rusiyada siyasi mübarizənin çox qızğın olacağını iddia edib.

Şimal qonşumuzda baş verənləri inqilabın "addım səsləri" hesab edənlər də var. Bu mənada baş verənlərdən Rusiya prezidentinin ciddi şəkildə narahat olduğu da təxmin edilir. Hər halda söhbət Qərbin sanksiyaları ilə üz-üzə qalan ölkədən gedir.

**Politoloq Elçin Mirzəbəyli** Rusiyada baş verənləri "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, Moskvada keçirilən etiraz aksiyalarını dəyərləndirməzdən öncə, ilk növbədə aksiyaların hansı məqsədlə keçirilməsini nəzərə almaq lazımdır: "Rusiyada bundan öncə də və daha genişmiqyaslı aksiyalar keçirilib, amma bu aksiyalarda səsləndirilən şüarlar sosial xarakterli olub. Son aksiya isə Moskva Dövlət Dumasına keçirilən seçkilərlə bağlı idi və iştirakçı sayına görə 2011-2012-ci il hadisələrindən sonra ən genişmiqyaslı etiraz dalğası sayıla bilər. Mərkəzi hakimiyyətin narahatlığına səbəb də məhz aksiyaların siyasi xarakter daşıması olub. Çünki sosial xarakterli aksiyalar hökumətin və ayrı-ayrı dövlət qurumlarının bu və ya digər sahələrdəki fəaliyyətindən narazılıq ifadə edir. Yəni bütövlükdə siyası hakimiyyətə yönəlmir. Amma siyasi aksiyalar birbaşa siyasi hakimiyyətə qarşı etirazdır və adətən belə aksiyalar hakimiyyətin reytinqinə ciddi təsir göstərir". Politoloq hesab edir ki, burada hansısa xarici ölkənin birbaşa əlinin olduğunu iddia etmək, bir az ideoloji yanaşma olardı: "Məsələ burasındadır ki, Rusiya müxalifəti seçkilərə kifayət qədər ciddi hazırlaşıb. Aksiyalar zamanı adətən ortaq məxrəcə gələ bilməyən qüvvələrin, məsələn, Navalnı tərəfdarları və "Yabloka"nın öz fəaliyyətlərini əlaqələndirməsini də yenilik hesab etmək olar. Təbii ki, bu amil də, çox güman ki, siyasi hakimiyyəti daha çox narahat edib. Yaşin, Sobol və Qudkov kimi tanınmış müxalifət nümayəndələrinin seçkilərə buraxılmaması, aksiyadan bir neçə gün əvvəl Aleksandr Solovyev, İvan Jdanov və artıq həbsdə olan Aleksandr Navalnıya məxsus mənzillərdə axtarış aparılması, şübhəsiz ki, aksiyalara öz təsirini göstərməyə bilməzdi. Amma təsir Rusiya hakimiyyətinin gözlədiyi kimi olmadı, əks effekt verdi. Doğrudur, bu prosesdə, xüsusilə də aksiyalardan sonra ABŞ və müttəfiqlərin Rusiyaya qarşı ritorikaları daha da sərtləşib. Bu isə öz növbəsində Rusiyanın hakimiyyətə yaxınlığı ilə seçilən ekspertlərinin və kütləvi informasiya vasitələrinin Qərbin son aksiyaları stimullaşdırdığını söyləməyə əsas verib". E.Mirzəbəyli qeyd etdi ki, bu, məsələnin təbliğat, yaxud əks-təbliğat tərəfidir: "Ortalıqda olan mənzərə isə ondan ibarətdir ki, insanlar dəyişiklik istəyirlər və populist şüarlardan, qlobal müstəvidə baş verən geosiyasi oyunlardan, Rusiyanın nəhəng dünya gücü olması barədə aparılan təbliğatdan yorulublar. Onlara bu nəhəng gücün potensialını öz həyatlarında hiss etmək lazımdır, nəinki Suriyada, yaxud başqa bir ərazidə..."



"Həm paytaxt şəhəri, həm ölkəni idarə edən siyasi elitanın maraqlarının cəmləşdiyi məkan, eləcə də bəzi müxalifciət etməsi hər şeyi həll etdi. Günün bu günündə də Moskva dumasına seçkilər o dərəcədə gərgin hala gətirilib ki, hakimiyyət qarşıdurma meyili ilə bağlı həssas durumda olmağa məcburdur. Məsələ heç onda deyil ki, Navalni, Qudkov və sair müxaliflər mərkəzi hökümətə təhdiddirlər. Problemin ağırlığı ondadır ki, ölkə boyunca etiraz ab-havası xeyli artıb və əgər paytaxtda hakimiyyət nəzarəti itirsə, onda bir çox vacib bölgələrdə həqiqi inqilab dalğası qalxa bilər..." T.Abbasov şübhə etmir ki, baş verənlər xarici mərkəzlərin diqqətindədir: "Çünki inqilabi prosesi kəskinlşdirmək Corc Sorosla birgə digər demokratik fond və açıq cəmiyyət təsisatlarının planlarına uyğundur. Təsadüfi deyil ki, iki minə yaxın saxlanılanların yarısından çoxu heç Moskva sakini deyil. Onların yönlü cərəyanlar ətrafında formalaşan mühit baxımından Moskvada son dərəcə qaynar vəziyyət hökm sürür".

**Bu fikirlər isə politoloq Tofiq Abbasova** məxsusdur. Ekspertin sözlərinə görə, sonuncu paytaxt meri seçkilərindən sonra müxaliflər məhz şəhər dumasına seçkiləri hədəfdə saxlamışdılar ki, öz sözlərini deyib qüvvələr nisbətini dəyişsinlər: "Ümumiyyətlə, Rusiyanın siyasi ənənəsində paytaxt amilinin son dərəcə vacib rol oynaması özünü büruzə verir. Oktyabr çevrilişindən sonra mərkəzi şəhərdə baş verənlər ölkə müqəddəratını müəyyən edib. Elə sovet rejimi çökdükdən sonra da Boris Yeltsinin Moskvanın mərkəzində tankın üzərinə qalxaraq xalqa müraarasında bölgələrdən gəlmiş və hətta xaricdə yaşayan Rusiya vətəndaşları da var. Bu da ondan xəbər verir ki, inqilabi texnologiyalardan istifadə olunub. Kütlənin özünün mütəşəkkil tərzdə aparması, asayış keşikçilərinə birinci hücum etməsi göstərir ki, "paytaxt küçəsi" özünün düşünülümüş formada aparmaqla hakimiyyət qüvvələrinə özünün iddiasını təqdim edib". Politoloq digər məqama da diqqət çəkdi: "Həmin gün Moskvaya xarici media mənsublarıının xeyli sayda axışması da göstərir ki, prosesin gedişatına təkcə Rusiyadaxili qüvvələrin deyil, həm də kənar dairələrin marağı böyükdür. Xaric anlayır ki, əgər seçki prosesi saxtalaşdırılırsa, deməli, bundan istifadə etmək zəruridir. Odur ki, Moskva merinin seçkilərində müxaliflər özlərini nisbətən dözümlü apardılarsa, bu dəfə ciddi-cəhdlə hazırlaşıb hakimiyyətə meydan oxudular".

**Bəs, bu proseslər Putin üçün təhlükəlidirmi? Rusiya SSRİ-nin taleyini yaşaya bilərmi? T.Abbasov:** "Xeyr. İndiki Rusiya ilə SSRİ-nin süqut dövrü arasında böyük fərq var. Kreml bütün bu qəbildən olan prosesləri izləyib adekvat cavab verməyə qadirdir. Əslində belə qarışıqlıqların mediada işıqlandırılması son dərəcə əhəmiyyət kəsb edir. Sosial şəbəkələrin də vacib rolu var və buna görə də hakimiyyət prosesləri özbaşına buraxmır və həm tədbirləri və hətta kəsərli əks-tədbirləri görür. Bu da çox əhəmiyyətli göstəricidir..." Ekspert Navalnının həbsi və zəhərlənməsi şəraitində problem yaşanmayacağını da vurğuladı: "Lider qıtlığı yoxdur, xarizmatik öndə gedən problemi var. Zənn edirəm ki, zəhərlənmə məsələsi feyk üzərində qurulmuş gedişdir. Onun bir o qədər də tutarlı kəsəri olmayacaq".

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019



# Şayiə yayan türkmənlərin şalvarsız həqiqəti

**Samir SARI**

**Böyük siyasətçi Uinston Çörçill həqiqətən də belə bir söz deyibmi, deməyibmi, dəqiq bilmirəm. Kəlam belədir: "Həqiqət şalvarını geyənə qədər yalan dünyanın yarısını dolaşır".**

Düzdür, Çörçill çox müdrik kəlamlar söyləyib, bir xeylisini də bilirəm, amma bu, qarşıma çıxmayıb, Famil Cəfərlinin qarşısına çıxıb. İş ondadır ki, son vədələr sosial şəbəkə üzvləri bu işin zibilini çıxarıblar, bir də görürsən, məşhur bir atalar sözünü yazır (məsələn, "İlan vuran ala çatıdan qorxar"), altından da yazırlar: "Albert Eynşteyn". Guya ki, bu sözü o deyib. Yaxud "İtlə dostluq elə, çomağı əldən qoyma" kəlamını Frommun adına çıxırlar. Qəsdən eləyirlər, məzələnirlər.

Ona görə də "Həqiqət şalvarını geyənə qədər yalan dünyanın yarısını dolaşır" hikmətini hər kim deyibsə, fərqi yoxdur, düz deyib.

Bu nəyi göstərir? İlk növbədə onu ki, həqiqət yalandan fərqli olaraq, abırsız deyil, uşaq-böyük, ana-bacı nəzərə alır, camaatın içinə çıxmazdan öncə şalvarını geyinir. Amma yalan həyasızdır, necə gəldi, hara gəldi cumur. Hərçənd "çılpaq həqiqət" deyilən bir ifadə də var, amma onu heç kəs hələm-hələm ortaya qoymur. Çılpaq yalan isə özü şıllaq ata-ata, dombalaq aşa-aşa dünyanı gəzir.

Budur, dənizin o tayından xəbər gəlir ki, Türkmənistanda prezident Qurbanqulu Berdımühəmmədovun öldüyündən danışan adamları cələkləyib qoyublar içəri. Şayiə yayırmışlar yaramazlar.

Bu, o xəbərdir ki, 10 gün öncə yayılıb və yalan olduğu deyilir. Hər halda o yalan xəbər dünyanın yarısını, postsovet məkanının hamısını dolaşıb, təzədən Türkmənistana qayıdıb və çanağı orada bir neçə yetimin başında çatlayıb.

Tutulanlar hər kimdirsə, ya başqa ölkələrin saytlarını oxuyan, ya da yuxarı yerlərdə qohumları olan adamlardır. Onlar bu "yalan xəbər"i ya oxuyublar, ya da eşidiblər. İnsan oğlunda da qaydadır axı, eşidib-bildiyini mütləq başqalarına deməlidir. O adamlar da mühəqqəq bu işi görüblər və yaxaları əldə qalıb.

İndi elə çıxır ki, o boyda ölkədə cəmi iki-üç nəfər bu barədə danışıb. Elə şey yoxdur. Danışmağa qalsa, 17-dən 77-yə, bütün türkmən xalqı Berdımühəmmədovun öldüyü barədə saatlarla, həftə günlərlə danışıb. Oturub ağlayanlar, üzünü cıranlar, "keşkə bu xəbər yalan olsun" deyibən 62 qoç qurban deyənlər olub. (62 - prezidentin yaşı).

Bəlkə də bu xəbəri alarkən sevinən və qol götürüb oynayanları necəsə sənədləşdirib (polisə müqavimət və ya üstündə istehlak miqdarından artıq narkotik vasitə saxlamaq, gəzdirmək maddələri ilə) həbs etmək olar, amma, ola bilər, yazıq tutulanlar qonşularına "belə bir kədərli xəbər eşitmişəm" deyə sözə başlayanlardır. İndi rəvadırmı ki, adamları heç nə üstündə tutub ağzıbirə salıblar?

Yoxsa o adamlar "yalan xəbəri" başqa cür yayırmışlar? Bu məqsədlə xüsusi avtobus tutublar, səsgücləndirici ilə təchiz ediblər, sonra kənbəkənd, şəhərbəşəhər gəzərək deyiblər ki, eey, əhali, duyduq, duymadıq deməyin, prezidentiniz ölüb, xəbəriniz olsun.

Böyük ehtimalla belə olmayıb, onlar eləcə qonşuya pıçıldayıblar ki, belə bir xəbər eşitmişik. Qonşu da hüquq-mühafizə orqanları ilə könüllü əməkdaşlıq edənin biri olub, qaçıb kimə lazımdır, çatdırıb.

Hələ bu, son deyil. Əmin ola bilərsiniz ki, bu söhbətə görə çox adamın qoluna qandal vurulacaq. Çünki o "yalan xəbər" hamının dilində dolaşıb. İndi mərdiməzar, intriqan adamlar "fürsət bu fürsətdir" deyə öz düşmənlərinin torbasını tikəcəklər, gedib orqanlara "o sözü filankəs də danışırdı" deyəcəklər.

Hətta bu günlərdə arvadını bərk döyən kişilərə də təhlükə var. Hatun gedib polisə deyəcək ki, kocam prezidentin öldüyünü deyirdi, etiraz etdim, məni tutub döydü. Di get... Həqiqət şalvarını geyib polisə gələnəcən, yazıq əri islağa qoyulmuş Aşqabad palazı kimi çırpacaqlar. Hələ adam çırpılma ilə qurtarsa, böyük işdir, artistlər şayiə yayanların suratının dağlanmasını tələb edirlər.

Türkmən xalqının düşdüyü bu naqolay vəziyyətdən optimal çıxış yolu odur ki, Qurbanqulu gerçəkdən də haqqın dərgahına qovuşmuş olsun. Bəlkə onda "şayiə yaymaq" ittihamı öz-özünə aradan qalxar, tutulanlara rəhm edərlər. Hərçənd onu da bilmək olmaz, deyərlər, nəhs gətirdiniz, prezidentin başını yediniz, alçaqlar, gedin 10 il yatın.

# Cahangir Hacıyevə 17 il həbs tələbi

## Sabiq deputat Dünyamin Xəlilova da prokuror ağır cəza istəyib: 15 il 9 ay...

**Sabiq bankir Cahangir Hacıyev 21 nəfərlə birlikdə növbəti dəfə hakim önünə çıxarılıb.**

Musavat.com xəbər verir ki, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və onunla birlikdə ittiham edilən şəxslərin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutub.

Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib. Prokuror təqsirləndirilən şəxslərə cəza istəyib. Dövlət ittihamçısı Cahangir Hacıyevin əvvəlki cəzası ilə birlikdə qəti olaraq 17 il, sabiq deputat Dünyamin Xəlilovun isə əvvəlki cəzası ilə toplamaqla qəti olaraq 15 il 9 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Bu işdə adına şirkət açılan və bu yolla da bankdan milyonlarla manatın çıxarılmasına şərait yaradan digər təqsirləndirilən şəxslər Camal Həsənov, Sərxan Rəsulov, Natiq İmanov, Samir Hacıyev, Təbriz Əbdülhəmidov, Mahir Qafarov, Sadıx Murtuzayev, Tərlan Məhərrəmov, Fəxrəddin Heybətov, Ramin Əhmədov, Fariz Muradov, Səlahəddin Qədirov, Erxan Cavad, Arif Ramazanov, Navai Şirinov, Svetlana Əsədullayeva, Arif Mədətov, Adil Mikayılov, Ramis Kərimov barəsində isə şərti cəza təyin edilməsi istənilib.

Prokuror təqsirləndirilən şəxslərdən İsmayıl Hidayətzadəyə isə 6 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilməsini istəyib.

Bildirək ki, İsmayıl Hidayətzadə Cahangir Hacıyevin bacanağıdır. O, "İntertabakko" Zaqatala Tütün Emalı Zavodunun direktoru vəzifəsində işləyərkən



Cahangir Hacıyev

"Azərbaycan Beynəlxalq Bankı" ASC-dən kredit götürərək qaytarmamaqda günahlandırılıb və Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il müddətinə azadlıqdan məhrum edilib. Ali Məhkəmə isə onun cəzasını 5 ilə endirib. Prokuror çıxışında mülki iddiaların təmin edilməsini istəyib.

Rəsmi məlumata görə, aparılmış istintaqla 2001-2015-ci illərdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyevin göstərişləri əsasında ayrı-ayrı ölkələrdə yaradılmış hüquqi şəxslərlə real dəyəri olmayan sadə veksellərin alqı-satqısına dair 3,4 milyard ABŞ dolları və 987 milyon avro məbləğində (müvafiq dövrün məzənnəsi ilə 3,8 milyard manat) müqavilələr bağlanılaraq qanunsuz veksel əməliyyatları aparılmasına dair əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, istintaqla C.Hacıyevin göstərişləri əsasında həmin dövrdə qeyriləri vasitəsilə çoxsaylı kredit müqavilələri bağlanaraq manat və xarici valyutalarla rəsmiləşdirməklə 900 milyon manat həcmində pul vəsaitinin bankdan digər hesablara köçürülərək mənimsənilməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Aparılmış istintaqla C.Hacıyevin tanışı Dünyamin Xəlilov, digər 20 nəfər və qeyriləri ilə birlikdə qanunsuz maliyyə əməliyyatları aparılan və real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,1 milyard manat məbləğində pul vəsaitinin mənimsəmə və digər cinayətlər yolu ilə 2,5 milyard manat hissəsini ələ keçirməklə cinayət yolu ilə əldə edilmiş həmin vəsaitin 2 milyard manatını leqallaşdırmasında, digər 2,2 milyard manat məbləğində pul vəsaitinin isə müxtəlif əməliyyatlara yönəltməklə "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

❑ **İlkin MURADOV, Musavat.com**

# "Yol terroru"nun əsas səbəbi-yüksək sürət və...

## Qatarın taksini vurmasının üzə çıxardığı acı reallıq

**Xəzər rayonu, Zirə qəsəbəsində qatar taksini vurub. Qala yolunda baş verən qəzada 5 nəfər xəsarət alıb. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, hadisə yerinə 5 təcili tibbi yardım briqadası göndərilib.**

Qəza nəticəsində ən ağır vəziyyətdə olan 22 yaşlı qız qapalı kəllə-beyin travması alıb, yuxarı ətraflarında sınıq yaranıb. 20 yaşlı oğlan da qapalı kəllə beyin travması alıb. Vəziyyəti ağır olan həmin xəsarət almış şəxslər 3 saylı Bakı Şəhər Klinik Xəstəxanaya aparılıb. Olay nəticəsində yaralanan 38 yaşlı kişidə sol qolun sıyrılmış yarası, 33 yaşlı kişiyə sol çiyin və sol baldırın travması diaqnozu qoyulub. Sonuncu xəstəxanaya getməkdən imtina edib.

Hələlik qəzanın hansı səbəbdən baş verməsi rəsmi olaraq açıqlanmayıb. Ehtimal var ki, taksi sürücüsü "dəmiryol keçidi" nişanının tələbinə məhəl qoymayıb, qatarın yaxınlaşmasını dəqiqləşdirmədən yoldan keçməyə çalışıb və belə bir qəza meydana gəlib.

Oxşar qəza ötən ilin



oktyabrında Bakının Binə qəsəbəsi ərazisində baş vermişdi. O zaman 160 saylı xətt marşrutu üzrə hərəkət edən sərnişin avtobusu ilə qatar toqquşmuşdu. Hadisə nəticəsində 1 azyaşlı dünyasını dəyişmiş, 20 nəfər xəsarət almışdı.

Dəniz çimərliklərində boğulma halları, yol qəzaları günümüzün ən aktual problemlərindəndir. Dəniz çimərliklərində yay mövsümündə baş verən faciələr ilboyu yollarda təkrar olunur. Günahsız adamlar "yol terror"unun qurbanına çevrilirlər. Yol qəzaları ilə bağlı statistik məlumatlar gündəmin daimi xəbərləri sırasında ilk yerlərdədir. Yol qəzalarında hər gün ölüm faktları qeydə alınır. Problemin qarşısının alınması üçün atılan addımlar, görülən tədbirlər yetərsiz görünür. Görəsən daha effektiv metodlar varmı?

"Bu problemə qarşı mübarizə aparmaq üçün bir neçə istiqamətdə tədbirlər görülməlidir. Yol qəzalarının baş verməsində müxtəlif səbəblər var. Bu məsələdə əsasən yol hərəkəti, onun təşkili, sürücü hazırlığı, hərəkət iştirakçılarının hazırlıq səviyyəsini qeyd etməliyik. Bu problemlər yol qəzalarının baş verməsində əsas səbəblərdəndir. Yol qəzaları ilə bağlı effektiv metodlarla mübarizə aparılmalıdırsa, bu amillər nəzərə alınmalıdır".

**Yol hərəkəti üzrə ekspert Elməddin Muradlı** belə deyir. Onun sözlərinə görə, qəzalarda insan amili də ön sıradadır: "Yol hərəkəti iştirakçıları hazırlıq, təhlükəsiz idarəetmə baxımından çox zəifdirlər. Piyadalar yolu uyğun olmayan ərazidən keçir, sürücülər qaydalara əməl etmirlər. Yollarda yol hərəkəti qaydalarının mahiyyətindən xəbərsiz sürücülər var. Əksər sürücülər bunu dərk etmir və ona görə də qəzalar baş verir. Sürücü və ya piyadalar yol hərəkəti qaydalarını pozurlar. Bu isə ağır nəticələrə səbəb olur".

E.Muradlı deyir ki, 2012-ci ildə prezident İlham Əliyev tərəfindən yollarda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi haqqında sərəncam imzalanıb. "Tədbirlər görüldü, amma yollarda qəzaların sayı azalmadı. Ümumdünya Səhiyyə Təşkilatının məlumatında bildirilir ki, il ərzində yol-nəqliyyat hadisələri zamanı 1 milyon 250 min insan həyatını itirir. Təkcə 2013-2017-ci illərdə Azərbaycan yollarında 11 min 600 yol qəzası baş verib. Baş verən qəzalarda 4691 insan həyatını itirib, 11 min 611 şəxs isə yaralanıb. Bunlar kifayət qədər böyük rəqəmlərdir. 2018-ci ilin sonunda "Yol hərəkətində təhlükəsizliyə dair" Dövlət Proqramı qəbul edilib", - deyə ekspert qeyd etdi.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019

# Atasının imtina etdiyi nazir oğlu intihar etmək istəyibmiş

## Murad Quliyev: "Birdən ayıldım ki, belə addım atmaq lazım deyil"

**Azərbaycanın sabiq xarici iqtisadi əlaqələr naziri Qüdrət Quliyev hakimiyyət əleyhinə açıqlamalar verən oğlu Murad Quliyevlə bağlı bəyanat yayıb.**

Sosial şəbəkələrdə və xəbər saytlarında yazılanlara görə, bəyanatında sabiq nazir bildirib ki, ailəsi Muraddan imtina edir və onun siyasi fəaliyyətinə görə heç bir məsuliyyət daşımır. Məsələ sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olur. Müzakirələrdə bildirilir ki, Q. Quliyev bu addımı oğlunun ölkə mediasına verdiyi müsahibəsindən sonra atıb.


Qüdrət Quliyev


Murad Quliyev

Murad Quliyev 5 ildir ki, ABŞ-da yaşayır. Sosial şəbəkələrdən də görünür ki, M. Quliyev hakimiyyət əleyhinə olan sərt fikirlər paylaşır. Elə sonuncu müsahibəsində də o, hakimiyyət əleyhinə çox kəskin fikirlər işlədib. Ehtimal edilir ki, Qüdrət Quliyev də məhz bu fikirlərinə görə belə bir bəyanat yayıb.

Qüdrət Quliyev məlum bəyanatda bildirib: "Təcrübəsiz bir gəncin atasının adı və fəaliyyəti ilə spekulyasiya etməsi acınacaqlı haldır və mən oğlumun hərəkətlərini ictimai formada pisləmək və qınamaq zorunda qalmışam. Onun mənim keçmiş həyatım, ictimai fəaliyyətim ilə bağlı KİV-də çıxışlarını səhv, yanlış və yersiz hərəkət sayıram. Muradın, "keçmiş nazirin oğlunun" təcrübəsizliyindən istifadə edib siyasi dividentlər qazanmaq istəyənlərə, məni siyasi oyunlara qatmağa çalışanlara etirazımı bildirir və bu oyunların fərqində olduğumu bəyan edirəm! Mən həyatım boyu demokratik fikirli bir vətəndaş olmuşam və fikir azadlığını cəmiyyətin ali norması saymışam. Mən 25 ildir ki, dövlət qulluğundan öz siyasi fikirlərimə görə və öz iradəmlə getmişəm. Amma dünyanı az-çox gördüyüm və bildiyim, cərəyan edən proseslərdən hali olduğum üçün açıq siyasi fəaliyyətə qoşulmaqdan vaz keçmişəm. Muradın sadəlövhlüyündən, özünü özünün də dərk etmədiyi oyunlara soxduğundan pərişanam və onun bilərəkdən və ya qanmadan hörmətsizlik etdiyi şəxslərdən, tanışlarımdan və dostlarımdan üzr istəyirəm".

Atasının bu bəyanatına Murad Quliyevin münasibəti də sərt olub. Sabiq nazir oğlu baş verənlərə görə hakimiyyəti ittiham edib.

Onu da qeyd edək ki, M.Quliyev müsahibəsində məsələlərə də toxunub. Fikirlərindən belə anlaşılır ki, M. Quliyev maddi baxımından imkansızlıq içərisində böyüyüb. "Atam nazir olsa da, imkanımız yaxşı deyildi. Uşaqlığım nazir balası kimi keçməyib",- deyən Murad Quliyev vaxtilə intihar etmək istədiyini də dilə gətirib:

"Özümə qəsd etmək istəyirdim. Getdim bulvara, orda bir az dayanıb düşündüm. Birdən ayıldım ki, belə addım atmaq lazım deyil. Və bundan sonra öz məqsədimə çatacağıma dair özümə söz verdim. Məqsədim o idi ki, heç kimin qarşısında əyilməyəcəm. Buna görə də heç kimin qapısını döyməmişəm. Getdim ticarətlə məşğul oldum. Mən məktəbdə oxuyanda Birləşmiş Ərəb Əmirliyinə uçan ilk gənclərdən olmuşam. Xırda ticarətlə məşğul oldum. Maşınımı öz pulumla almışam. Avtomobili alanda gözümdən yaş gəldi".

5 ildir ABŞ-da yaşan Murad Quliyev reper kimi də özünü sınayıb. O, xalq artisti Aygün Kazımova ilə duet oxuyub. Quliyev Kazımova ilə birgə "Tənha qadın" mahnısını ifa edib.

Onu da qeyd edək ki, tanınmışların oğlundan imtina etməsi tendensiyası son zamanlar geniş yayılıb. Ötən ay Müdafiə Nazirliyinin mətbuat xidmətinin keçmiş rəhbəri Eldar Sabiroğlu da oğlu Rüfət Səfərovdan imtina etmişdi. Bu barədə o, məktub yazaraq sosial şəbəkə vasitəsilə ictimailəşdirmişdi. Sabiroğlu hətta oğluna bildirmişdi ki, məzarı üstünə gəlməsin, cənazəsi altına girməsin. Sonda Eldar Sabiroğlu məktubunu "sənin keçmiş atan" cüməsi ilə tamamlamışdı.

Xatırladaq ki, R.Səfərov Zərdab Rayon Prokurorluğunun sabiq müstəntiqidir. O, rüşvət almaqda təqsirləndirilərək həbs edilmiş, prezident İlham Əliyevin əfv sərəncamı ilə azadlığa çıxmışdı. Səfərov da hakimiyyət əleyhinə çıxışlar edib, müxtəlif ittihamlar irəli sürüb.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Vaşinqton Azərbaycanı qorumaq üçün hərəkətə keçib - pərdəarxası məqamlar

## Elxan Şahinoğlu: "ABŞ-Azərbaycan münasibətlərindən narahat olanlar az deyil"



**Azərbaycanın təhlükəsizliyinin qorunmasında Qərbin marağı getdikcə artmaqdadır. Son olaraq, ABŞ prezidenti Donald Trampın 2018-2019-cu maliyyə ili üçün Azərbaycana 100 milyon dollardan bir qədər artıq pul ayırması dediklərimizə sübutdur. Təsadüfi deyil ki, bu məbləğ Amerikanın indiyə qədər ayırdığı ən yüksək vəsaitdir və bu vəsait əsasən ölkəmizin cənub sərhədinin gücləndirilməsinə yönəlib.**

ABŞ-ın Azərbaycanla bağlı bu marağı müzakirələrə yol açıb. Ehtimallar var ki, rəsmi Vaşinqton İranla mümkün əməliyyata hazırlaşır və bunun üçün rəsmi Bakıya yönəlik şimal və cənubdan dini, ideoloji, hərbi istiqamətlərdən gələ biləcək təhdidləri önləmək dünyanın supergücü üçün əhəmiyyət daşıyır. Bəzi ekspertlərin fikirlərinə görə, Amerika İranın şimal sərhədlərini nəzarətə götürmək istəyir. Bu sərhədi isə Azərbaycan və Xəzər dənizi təşkil edir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** "Yeni Müsavat"da məsələyə bu cür şərh verdi: "Ayrılmış maliyyənin bir hissəsi Azərbaycanın İranla sərhədinin gücləndirilməsinə yönəlib. Bura tikinti qurğuları, elektronik cihazlar, rabitə və nəqliyyat vasitələri, izləmə texnologiyaları daxildir. Məbləğin digər hissəsi isə Xəzərdə təhlükəsizlik məsələlərinə və insan hüquqlarının inkişafına yönəlib. Birincisi, ABŞ keçmiş illərdən fərqli olaraq, Azərbaycana maliyyə yardımını artırıb. İkincisi, Amerikanın ayırdığı yardımın konkret istiqamətləri də göstərilib. "Caspian Guard" ("Xəzər keşikçisi") təhlükəsizlik layihəsi çərçivəsində Azərbaycanın sərhədlərində təhlükəsizliyin artırılması, terrorizm təhdidlərinin, həmçinin insan alveri, narkotik ticarəti kimi digər transmilli təhlükələrin qarşısını almağa istiqamətlənib. Digər tərəfdən, Azərbaycanın Xəzərdə həyata keçirdiyi enerji layihələri və onların dünya bazarlarına daşınması Amerikanın da maraqlarına cavab verir. Ona görə də Vaşinqton Azərbaycanın Xəzər dənizindəki enerji layihələrinin təhlükəsizliyinin artırılmasını istəyir və bunun üçün maliyyə ayırır. Amerikanın Azərbaycana ayırdığı maliyyənin İranla əlaqəsi də var. ABŞ-la İran arasında münasibətlər gərgindir. Amerikada siyasi mərkəzlər hesab edir ki, müharibə başlasa, İranın hərbi dairələri Amerikanın bölgədəki müttəfiqlərini və onların regional enerji layihələrini də hədəf ala bilərlər. Ona görə də Amerika müttəfiqlərinə, o cümlədən Azərbaycana dəstəyini artırır. Rəsmi Bakı Vaşinqtonla münasibətlərin indiki səviyyəsindən razıdır. Ancaq bütün hallarda Azərbaycan-Amerika münasibətləri və ya Azərbaycanın Amerikadan aldığı maliyyə yardımı İrana qarşı yönəlməyib. Azərbaycan İranla münasibətlərdə gərginlik istəmir. Tam əksinə, Azərbaycan Ermənistanın xaricində bütün qonşuları, o cümlədən İranla münasibətlərin hazırkı səviyyəsini qorumaq istəyir. Buna baxmayaraq, rəsmi Bakı bölgədə mümkün gərginlik ocaqlarını da hesablamaq məcburiyyətindədir. Açıq demək lazımdır ki, İranın rəsmi və diplomatik dairələrində ABŞ-Azərbaycan münasibətlərindən narahat olanların sayı az deyil. Bunu mən ötən ayın sonunda İrana səfərim və müxtəlif görüşlərim zamanı da müşahidə etdim. Mən həmsöhbətlərimi inandıra bilmədim ki, ABŞ-Azərbaycan münasibətləri İrana qarşı yönəlməyib. Onlar buna inanmırlar. Ancaq Tehran bizə inanmır deyə, biz müstəqil xarici siyasətimizdən imtina edə bilmərik. Əksinə, biz göstərir və sübut edirik ki, yeni zamanda İranla, İsrail və ABŞ-la normal münasibətləri inkişaf etdirmək olar. Yetər ki, qarşı tərəfin bizə qarşı başqa niyyəti olmasın. Əks halda biz özümüzü hansısa ittifaqlara daxil olmaqla qorumaq məcburiyyətində qalacağıq".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli** ayrılan vəsaitdə Amerikanın pərdəarxası niyyətinin olduğunu düşünür: "ABŞ regionda böyük əməliyyata hazırlaşır. Bunun əlamətlərini Suriyadan sonra İranda görmək mümkündür. Açıq şəkildə deyə bilərik ki, sərhədlər Aralıq dənizi sahilindən Qafqaza qədər uzanacaq. Burda ABŞ-ın ilk və ciddi problemi İrandır. Müharibə baş verəcəyi təqdirdə ən böyük zərər çəkən ölkələrdən biri, şübhəsiz ki, Azərbaycan olacaq. Bu baxımdan biz qaçqın axınını qarşılamağa hazır olmalıyıq. Amma faktiki vəziyyətimiz bu məsələyə imkan vermir. Regionun müharibə meydanına dönməsi həm sərhədlərimizi dağıdacaq, həm də Qərbin dəstəklədiyi beynəlxalq əhəmiyyətə malik enerji layihələri təhlükə altına düşə bilər. Bütün bunları nəzərə alan ABŞ prezidentinin belə bir addım atması başadüşüləndir. Ayrılan yardım Azərbaycanın məhz Sərhəd Qoşunlarının nəzarət etdiyi bölgələri əhatə edir. Bu qərara paralel üç ölkə arasında - Rusiya, Türkiyə və Azərbaycanın viza sistemini ləğv etməsi də bu məsələnin bağlantılarından biridir. Belə görünür ki, ABŞ ciddi addım atacaq. Azərbaycan isə həm viza qərarı ilə, həm də 100 milyonluq yardım avantajı ilə siyasi gedişlərini şaxələndirə biləcək. Hətta bu olaylar imkan verir ki, Azərbaycan Sərhəd Qoşunlarını tam təmin etdikdən sonra Müdafiə Nazirliyinin qüvvələrini Dağlıq Qarabağa yönəldə bilsin. Belə ab-havada proses baş tutsa, Azərbaycan, güman ki, kollektiv müdafiə yolunu seçəcək. Amma hər bir halda qonşuluğumuzda, xüsusilə də Güney Azərbaycanda müharibə yaxşı nəsə vəd etmir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019



# Yaxın qonşunun uzaqlığı

**Zamin HACI**
zaminhaci@gmail.com

“Rusiyanın iki problemi var - yollar və axmaqlar”
*(müdrik fikir)*

**Bu yaxında bir saytda rusiyalı adam Latviyadan şikayətlənmişdi. Deyir Riqa aeroportundan Parisə uçmalıydım, keçid məntəqəsindəki işçi rusca sualıma cavab vermədi, rusca bilmədiyini söylədi, amma bunu elə rusca dedi.**

Gürcüstanda yaşayan dostumla yazışırdım, söhbət kinodan düşmüşdü, o isə Tiflis kinoteatrlarında yeni filmlərə rusca baxa bildiyini, lakin son hadisələr (Tiflisdə antirusiya aksiyalar, Putinin Gürcüstana uçuşları dayandırması və saire) nəticəsində bu imkandan məhrum olduğunu yazdı: “İndi burda rusca film nümayişi dayandırılıb”.

Hər tərəfdə belədir. Polşadan Qazaxıstana, Ukraynadan Estoniyaya qədər. Hələ bunlar guya Rusiyanın qonşularıdır, lazım gələndə yaxın olmaları məcburidir. Lakin hamısı Rusiyadan qorxur. Biz şimal qonşumuzun Qarabağda ermənilərin əliylə törətdiklərini isə heç unutmamışıq.

Ancaq Rusiyadan yarımayan tək bizikmi? Yox. Ruslar özləri öz dövlətlərindən, öz hakimiyyətlərindən ən çox zərərçəkən xalqdır. Keçən həftə sonu Moskvada dinc etiraz aksiyasını polis vəhşiliklə dağıtdı. 1400 nəfərə yaxın şəxsi həbs elədilər. Müxalifət lideri Aleksey Navalnını zindanda hansısa naməlum zəhərlə əcaib duruma salıblar. Üz-gözü şişibmiş, allergiya verirmiş. Ən dəhşətlisi odur ki, bütün Rusiya bu vəhşi rejimə öyrəncəli hala gəlibdir. Axı son iyirmi ildə orda öldürülən, repressiya edilən jurnalist, müxalifətçi, partiya üzvünün sayı-hesabı yoxdur. Putinə müxalif Boris Nemtsovu Qırmızı Meydanın (nəhayət bu yanlış tərcüməni də düzəltməliyik, bəlkə Anadolu türkcəsində rusun “krasnıy” sözü “qızıl” kimi çevrilə bilər, bizim türkcədə “qırmızı”dır) düz yanında rəsmən edam elədilər. İvan Qroznının, Dəli Petro-nun vaxtındakı edamlar kimi.

Bu baxımdan, rus dili faktoruna dünya xalqlarının ciddi allergiya ilə yanaşması, ondan bir növ qorxması anlaşılandır. Bu dil özüylə işğalçı, əzici, imperialist ideologiya, mühit gətirir. Azərbaycanda rus sektorunda oxuyanların çoxalması bu baxımdan narahat edicidir. Yoxsa, əlbəttə, lap musiqi festivalı keçirt, oxu, oyna. Gözəl işdir, camaat əylənmək istəyir. Şəxsən mən bu dəqiqə dünya ədəbiyyatından rus dili vasitəyilə məlumat alıram. Navalnının Youtube üzərindən canlı yayımlarına, yalan olmasın, son saniyəyə qədər baxıram. Hətta heyfsilənirəm niyə bizdə belə bacarıqlı, ağıllı, cəsur, güclü yumor hissinə malik müxalif lider yoxdur. O cümlədən, yüz minlərlə, bəlkə milyonlarla azərbaycanlı Rusiyanın çöllərində çörək qazanıb ailəsinə göndərir. Sözümün canı odur ki, “Rusiya bizim dünyaya açılan pəncərəmizdir” deyənləri də anlayıram. Ancaq nə edək, bu pəncərə daim bizə “skvoznyak” yaradırsa? Əgər evin pəncərəsi üfunətə, bataqlığa, zibilliyə açılırsa, sənin də oranı təmizləmək imkanın yoxdursa, ən düzgünü həmin pəncərəni bağlayıb başqa divardan pəncərə açmaq olmazmı?

Məşhur gürcü aktyoru Vaxtanq Kikabidzenin intervüsü çıxıb. Deyir: “Putindən yaxşı heç nə gözləmək olmaz. Rusiya işğalçı ölkədir”. Doğrusu, mən bir anda fikirləşdim ki, bizim hansısa aktyordan belə vətəndaş mövqeli açıqlama almaq olardımı? Sonra yadıma Rusiya vətəndaşı Rüstəm İbrahimbəyovun 3-4 il qabaqkı “namizədlik və vətəndaşlıq” biabırçılığı düşdü, nə qədər xam xəyalda olduğumu anladım. Ancaq qayıdaq Kikabidzenin, ya da əzizləmə formasında deyilən kimi, Bubanın intervüsünə. İntervünün bir yerində o, Rusiyanın xarici siyasətinin məzmununu tam açır. Sitat: “Primakov mənim dostum idi, Tiflisdə doğulmuşdu. Bir dəfə ondan soruşdum ki, axı bu Cənubi Osetiya Rusiyanın nəyinə lazımdır. Primakov dedi Abxaziyanı unutmağınız üçün”.

Doğrudan da bu imperiyanın “parçala, hökm sür” siyasəti yaxın ətrafında 300 ildir belə aparılır. Şuşanı unutdurmaq üçün bizdən Ağdamı, Füzuli aldılar. Ukrayna Krımı “unutsun” deyə başına Donbas fəlakəti gətirdilər. Ermənilər müstəqil siyasət yeritməsin deyə həmişə başlarına oyuncaq hökumətlər qoydular və saire.

Putin daxili problemlərdən diqqəti yayındırmaq üçün xaricdə nəsə törətməyə çalışır. (Bu yerdə redaktor yazını istədi, məcburam dayanım - müəllif).

# Kreml Qarabağ üzrə kuratorunu dəyişir, Bakı və İrəvan isə...

## Rusiyanın Ermənistandakı keçmiş səfiri yeni vəzifəyə gətirilir, Paşinyan təhlükəsizlik konsepsiyasını dəyişir, Fransa isə Azərbaycanla hərbi əməkdaşlığı gücləndirir - mühüm gəlişmələr...

**“Paris Bakı ilə energetika və müdafiə sənayesi sahəsində əməkdaşlıqda maraqlıdır”. “Yeni Müsavat”ın məlumatına görə, bu sözləri Bakıda Fransanın iqtisadiyyat və maliyyə naziri Bruno Le Mer Azərbaycanın maliyyə naziri Samir Şərifovla görüşü zamanı deyib.**



“Azərbaycan Fransa üçün həmişə mühüm iqtisadi tərəfdar olub və biz buna daim böyük önəm vermişik. Biz iqtisadi və maliyyə sahələri üzrə əməkdaşlığın yeni mərhələsinə keçmək istəyirik. Biz həmçinin energetik sferada, bərpa olunan enerji qaynaqları və müdafiə sənayesi sahələri üzrə ikitərəfli əməkdaşlıqda maraqlıyıq”, – deyə fransalı nazir söyləyib.

*****

Avropa Birliyinin aparıcı dövləti və ATƏT-in Minsk Qrupunun üç həmsədrindən biri olan, ərazisində ən böyük erməni lobbisinin mövcud olduğu Fransa ilə Azərbaycan arasında əlaqələrin son illər yüksəlişə üz tutması diqqət çəkməyə bilməz. Rusiyanın satelliti olan və onun təsir zonasından uzaqlaşa bilməyən, ölkəmizdən fərqli olaraq, Fransa üçün heç bir iqtisadi cəlbediciliyi olmayan Ermənistanda Bakı-Paris münasibətlərindəki bu istiləşmənin təlaş doğurması da gözləniləndir.

Azərbaycanı, təbii ki, Fransa ilə hərbi sahədə əməkdaşlıq məxsusi maraqlandırır - Qarabağa görə. Bu yerdə “Yeni Müsavat” xatırladır ki, ötən ilin sentyabrında Bakıda keçirilmiş "ADEX-2018" beynəlxalq Müdafiə Sərgisində ilk dəfə Fransa iki şirkətlə təmsil olunmuşdu: hərbi-dəniz müdafiəsi sahəsində Avropa lideri olan "Naval Group" (əsasən sualtı qayıqlar və gəmilər inşa edir) və "Thales" şirkəti. Sərginin keçirildiyi günlərdə məlum olmuşdu ki, Azərbaycanla Fransa hərbi-texniki sahədə əməkdaşlığı genişləndirməyə hazırlaşır. Söhbət iki ölkənin müştərək əsasda hərbi patrul gəmiləri istehsal etməklə bağlı anlaşmasından gedirdi.

Bu ilin iyununda Fransa paytaxtında keçirilən “Paris Air Show-2019" sərgisində isə Azərbaycan da təmsil olunmuşdu. Ancaq daha önəmlisi o idi ki, sərgi çərçivəsində Azərbaycan, hərbi sənaye nazirinin müşaviri Fərrux Vəzirov Fransanın "Nexter", “Thales” (Bakı sərgisində iştirak edib), “CS Communication”, “Lacroix” rəhbərləri ilə bir araya gəlmişdi. Görüşdə hərbi-texniki əməkdaşlığa dair məsələlər müzakirə edilmişdi.

Məsələn, “Nexter” şirkətinin rəhbərliyi ilə görüşdə müxtəlif növ müdafiə təyinatlı məhsulların, o cümlədən Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində mövcud olan istehsal sahələrində təkrəli zirehli texnikanın birgə istehsalı, robot texnikası sahəsində dəniz və hava platformaları üzərində müxtəlif növ silahların istehsalı və inteqrasiyası da daxil, əməkdaşlığın yaradılmasına dair danışıqlar aparılmış, tərəflər arasında bu layihələrin həyata keçirilməsi üzrə “yol xəritəsi” müəyyən edilmişdi. Görüşdə habelə “Nexter” şirkətinin ekspertlərinin iyulda Azərbaycana nəzərdə tutulan səfərləri çərçivəsində danışıqların davam etdirilməsinə dair razılıq əldə edilmişdi. Sərgi çərçivəsində Fransa Müdafiə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Thomas Lorne ilə də görüş olmuş, iki ölkə arasında hərbi-texniki əməkdaşlığın yaradılması istiqamətində danışıqlar aparılmışdı.

*****

Fransalı nazirin Bakı açıqlamasından da göründüyü kimi, tərəflər hərbi sahə də daxil, ikitərəfli əməkdaşlığın davam etdirilməsinə dair anlaşmaya sadiqdir. Bu isə, sözsüz ki, ən çox işğalçı Ermənistanı rahatsız edəcək. Yada salaq ki, az öncə Ermənistan XİN-i bununla bağlı xüsusi bəyanat yaymışdı.

Üstəgəl, ötən ay Fransa məhkəmələri bu ölkənin bir neçə şəhərinin merlikləri ilə separatçı Dağlıq Qarabağdakı yaşayış məntəqələri arasında bağlanmış qanunsuz dostluq müqavilələrini ləğv edib. Görünür, həm də bu səbəblərdən Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin təhlükəsizlik konsepsiyasını dəyişməyə girişib.

“Atlas” Araşdırmalar Mərkəzinin bu xüsusda təhlilində Paşinyanın hazırkı konsepsiyanı artıq yararsız hesab etdiyi bildirilir: “2016-cı il aprel savaşı Ermənistan ordusundakı böyük qüsurları ortaya çıxardı və hakimiyyətə gələn Paşinyan qüsurları etiraf etmək məcburiyyətində qaldı. Ermənistanın təhlükəsizlik konsepsiyası 2007-ci ildən bu yana dəyişdirilməyib. Yeni konsepsiyanın ana istiqamətlərini Paşinyanın yeni təyin etdiyi Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan təqdim edib. Onun əsas müddəaları bunlardır: birincisi, yeni konsepsiya 2016-cı il aprel müharibəsinin təkrarına yol verməməlidir. İkincisi, strategiyanın əsas şüarı budur: "Peşəkar generallar qələbəni müharibəsiz də əldə edirlər". Üçüncüsü, “yumşaq gücdən” istifadə. Paşinyanın məqsədi aydındır. Erməni cəmiyyəti müharibə və itki istəmir. Ona görə də Paşinyanın təliməti ilə hazırlanan təhlükəsizlik konsepsiyasının 3 ana maddəsində cəmiyyəti sakitləşdirmək üçün müharibə istisna edilir. Ancaq bunun reallaşdırılması mümkün deyil. Çünki “müharibə istəməmək” tək bir tərəfdən asılı məsələ deyil. Əgər qarşıdakı ordu növbəti hücum əməliyyatı planlaşdırırsa, döyüşə girməlisən”.

Analizdə Paşinyanın planlarını pozacaq yeganə gücün Azərbaycan ordusunun növbəti həmləsi ola biləcəyi vurğulanıb: “Bu halda Ermənistanın təhlükəsizlik konsepsiyasındakı hər 3 maddə - "aprel müharibəsinin təkrarlanmaması", “qələbəni müharibəsiz əldə edən generallar” və “yumşaq güc” mənasız söz yığınına çevriləcək, İrəvan yeni konsepsiyadan da imtina etməli olacaq”.

Ona görə də “Atlas” hesab edir ki, Ermənistan hökumətinin böyük ümidlərlə hazırladığı yeni təhlükəsizlik konsepsiyasının işlək və uzunömürlülüyü yalnız işğal faktına son qoyulmasından və bunun əsasında Azərbaycanla sülh sazişi imzalanmasından keçir...

*****

Bu arada həmsədr dövlətlərdən olan Rusiyanın Dağlıq Qarabağ üzrə kuratoru dəyişməyə hazırlaşdığı məlum olub. “Kommersant”ın yazdığına görə, Rusiya XİN-də Qarabağ münaqişəsi və keçmiş sovet respublikalarındakı digər münaqişələrlə məşğul olan diplomat dəyişir. Bu vəzifəyə Rusiyanın Ermənistandakı keçmiş səfiri İvan Volınkinin təyin olunacağı gözlənilir (Virtualaz.org).

Nəşr bildirir ki, indiyədək münaqişələrlə məşğul olan xarici işlər nazirinin müavini Qriqori Karasin Federasiya Şurasının üzvlüyünə namizəd göstərilib. Onun yerini kimin tutacağı isə faktiki olaraq müəyyənləşib. Belə ki, XİN-də yüksək posta hazırda üç nəfərin namizədliyi nəzərdən keçirilir. Onların içərisində əsas namizəd XİN-in konsulluq departamentinin rəhbəri İvan Volınkindir.

60 yaşlı Volınkin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunudur, SSRİ-nin və sonradan Rusiyanın ABŞ, Yuqoslaviya, Gürcüstan, Serbiya və Monteneqro, Makedoniyadakı səfirliklərində işləyib. 2009-2013-cü illərdə xarici işlər naziri Sergey Lavrovun köməkçisi, nazirliyin baş katibliyinin direktor müavini olub. 2013-2018-ci illərdə isə Rusiyanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri işləyib.

Təcrübəli diplomat Qriqori Karasinin Federasiya Şurası üzvlüyünə namizədliyini Saxalin vilayətinin qubernatoru irəli sürüb. Avqust ayında onun 70 yaşı tamam olur. Karasin uzun illərdir Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqları, o cümlədən Dnestryanı münaqişəni, Belarusla müntəzəm olaraq baş qaldıran ticarət müharibəsini kurasiya edib. Rusiya XİN-də bu istiqamətdə işin spesifikası ondan ibarətdir ki, həmin ölkələrlə bağlı qərarlar əsasən nazirlikdə yox, Kremldə qəbul edilir...

❑ **Siyasət şöbəsi, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019

# ABŞ və İran arasında "vur, vurum" siyasəti

## Tehran Pompeonun səfərinə "yox" dedi; İran komandosları Netanyahu və Trampın fotoplakatlarını hədəfə aldı; ekspertlərdən ilginc şərhlər

**ABŞ və İran arasında münasibətlər gündən-günə gərginləşməkdədir. Tərəflər dialoqa açıq olduqlarını bildirməklə yanaşı, vaxtaşırı bir-birini ittiham edirlər ki, bu da məsələlərin dinc yolla həllini çətinləşdirir.**



Bu arada ABŞ dövlət katibi Mayk Pompeo bildirib ki, İran onun Tehranı ziyarət etmək və "İran xalqı ilə birbaşa danışıqlar" aparmaq təklifini qəbul etməyib. "Report" xəbər verir ki, o bu barədə "Twitter" mikrobloqunda yazıb. "Bu yaxınlarda mən Tehrana gəlməyi və İran xalqı ilə birbaşa danışmağı təklif etdim. Rejim mənim təklifimi qəbul etmədi", - deyə Pompeo bildirib.

Yayılan digər xəbər də İran ətrafında ciddi proseslər getdiyini deməyə imkan yaradır. Belə ki, ötən həftə İsrailin ABŞ-dakı səfiri Ron Dermer gizli şəkildə Alyaskaya gedərək Amerika rəsmiləri ilə təhlükəsizlik sahəsində ABŞ-İsrail əməkdaşlığı və İran barədə həssas mövzuları müzakirə edib. Moderator.az İsrail mediasına istinadla xəbər verir ki, birinci dəfə cümə günü İsrail televiziyasının 13-cü kanalında Barak Ravid adlı müxbir bu ziyarət haqqında məlumat yayıb. O, adları açıqlanmayan İsrail rəsmilərinin ABŞ ştatlarından birinə gedişinin adi diplomatik səfər olmadığını, "daha vacib" bir məqsəd daşıdığını bildirib. R.Dermerin Alyaskaya səfəri İranın nüvə başlığı daşıya bilən "Şahab-3" raketini sınaqdan keçirdiyi həftə baş tutub. "Nyu-York Tayms" qəzetinin yazdığına görə, bu raket İranın cənubundan atılıb və 1100 km məsafə uçaraq Tehranın şərqinə eniş edib. İyulun 28-də İsrail Müdafiə Nazirliyi Alyaskada "Xes-3" raket əleyhinə sistemin müvəffəqiyyətli sınaqlarının keçirilməsi haqda məlumat yayıb. Məlumatda ölkənin ABŞ-dakı səfiri Ron Dermerin də sınaqları müşahidə etdiyi bildirilib.

Tehran da öz tərəfindən ABŞ-ı qıcıqlandıracaq addımlarından qalmır. Belə ki, İranın "Tasnim" agentliyi bu günlərdə xüsusi təyinatlıların təlimindən fotoreportaj yayıb. Virtualaz.org xəbər verir ki, bu təlimlərdə İran komandosları üçün hədəf qismində İsrailin baş naziri Benyamin Netanyahunun və ABŞ prezidenti Donald Trampın fotoplakatları yer alır. Agentlik bildirir ki, fotolar xüsusi təyinatlıların dəqiq atış təlimi zamanı çəkilib. Bu təlimlər zamanı xüsusi təyinatlılar istənilən situasiyada və istənilən şərtlər altında dəqiq atəş açmaq vərdişlərini mənimsəyirlər. Fotolara əsasən, İsrailin baş naziri və ABŞ prezidenti güllələrdən "dəlmə-deşikdir".

**Bəs, ekspertlər nə düşünür, ABŞ-İran savaşı realdırmı?**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a dedi ki, Donald Tramp administrasiyası İranla müharibə istəmir: "Bu, bölgə və Amerikanın regional maraqları üçün mənfi nəticələr yaradar. Ona görə də Ağ Ev İrana qarşı siyasətində qamçı ilə yanaşı, son zamanlar kökə siyasətindən də istifadə etməyə çalışır. Təsadüfi deyil ki, ABŞ dövlət katibi Mayk Pompeo Tehranı ziyarət etmək və "İran xalqı ilə birbaşa danışıqlar" aparmaq təklifini edib. Əlbəttə, bu təklifin konkret nəyi ehtiva etdiyini söyləmək çətindir. Çünki rəsmilər başqa ölkənin xalqları ilə danışıqlar aparmırlar. Özü də bəlli olanda ki, Amerikanın məqsədi İranda rejim dəyişikliyinə nail olmaqdır. Pompeo yazıb ki, İran rejimi onun təklifini qəbul etməyib. Əlbəttə, qəbul etməz. Çünki Amerika həm nüvə sazişindən çıxıb, həm də İranın hazırkı rejiminə qarşı yerinə yetirilməsi mümkün olmayan tələblər irəli sürüb. Həmin tələblərin mahiyyəti faktiki odur ki, İranın hazırkı hakimiyyəti regional maraqlarından imtina etməli və iqtidarı başqalarına ötürməlidir. Ancaq prezident Donald Trampın və dövlət katibi Mayk Pompeonun Tehrana ünvanlanan "gəlin görüşək" təklifinin arxasında incə hesab var. Vaxtilə Amerika Şimali Koreyanı da hədələyirdi və Şimali Koreya lideri Amerikaya qarşı nüvə silahından istifadə edəcəyini bildirirdi. Bu gün Amerika və Şimali Koreya liderləri görüşür və fikir mübadiləsi aparırlar. Doğrudur, iki dövlət arasında hər hansı saziş imzalanmayıb, ancaq dialoq atmosferi gərginliyi azaldıb və bu gün heç kim Amerika ilə Şimali Koreya arasında müharibədən danışmır". E.Şahinoiğlunun fikrincə, Tramp ümid edir ki, İran prezidenti də Şimali Koreya lideri kimi onunla görüşməyə razılıq verəcək: "Hələ ki, İran prezidenti bu görüşə razılıq vermir. Çünki belə bir görüşə razılıq vermək onun siyasi karyerasının sonu olar. İranda söz sahibi dini lideri və İslam Keşikçiləri Korpusudur. Onlar isə hazırkı şərtlər daxilində Vaşinqtonla dialoqun əleyhinədirlər. Buna baxmayaraq, İranda iqtisadi və sosial problemlər artır və Tehran çıxış yolları tapmaq məcburiyyətindədir. Tehran ümid edir ki, Donald Tramp ikinci dəfə prezident seçilə bilməyəcək və onun yerinə gələn demokrat prezident Barak Obama kimi Tehranla yenidən nüvə sazişini imzalayacaq. Bu hesablar doğrulmaya da bilər". Politoloq hesab edir ki, Tramp ikinci dəfə prezident seçilsə, İrandakı müxtəlif dairələr ortaq məxrəcə gələrək hansısa üçüncü dövlətin vasitəsilə Vaşinqtonla dialoq imkanlarını nəzərdən keçirə bilər: "Bu mənada Azərbaycan üçün unikal şans yaranıb. Rusiya-NATO dialoqu Bakıda həyata keçirilir. Rəsmi Bakı Vaşinqton-Tehran dialoqunun da Azərbaycan paytaxtında həyata keçirilməsini təklif edə bilər".

**Politoloq Məhəmməd Əsədullazadə** isə dedi ki, ABŞ-ın İran siyasəti regionda yeni siyasi düzənin qurulmasına hesablanıb: "Bunu "ərəb baharı"nın davamı kimi qiymətləndirmək olar. Vaşinqtonun "şər üçbucağı"na daxil olan İranın regional siyasəti ABŞ-ın Yaxın Şərqdə geosiyasi maraqlarının qarşısını alır. İki ölkə bu regionda vəkalət müharibəsi aparır. Burada əsas strategiya ilk növbədə İsrailin təhlükəsizliyini təmin etmək və İranı ram edərək, Yaxın və orta şərq siyasətindən vaz geçirməkdir. Hazırda İran Livan, Suriya, İraq və Yəməndə ABŞ və müttəfiqləri ilə, demək olar ki, dəstək verdiyi silahlı qruplar vasitəsilə müharibə aparır. Vaşinqtonun 2015-ci ildə İran və "Altılıq" ölkələri arasında bağlanmış nüvə sazişindən birtərəfli çıxması məhz Tehranın Yaxın Şərqdə artan siyasi-hərbi aktivliyi ilə əlaqədardır". Ekspert dedi ki, İrana qarşı bərpa olunan sanksiyalara rəğmən bu gün Tehran öz geosiyasi maraqlarından geri çəkilmir. Həmçinin xatırlatdı ki, nüvə proqramının inkişafını və ağır suyun istehsalını bərpa etməklə Hörmüz boğazında Qərbin neft tankerlərinə qarşı hərəkətə keçib: "Bu, onu göstərir ki, Tehran "dişə-diş" siyasəti aparmaqla müharibədən çəkinmir. Baxmayaraq ki, ölkədə iqtisadi defolta yaxınlaşır, sosial vəziyyət gərginləşir. Neft satışı kəskin aşağı düşüb. Hesab edirəm ki, Tehranın bu davranışları ABŞ-la dialoq təklifini rədd etməsi müharibə ehtimalını yaxınlaşdırır. İranda hesab edirlər ki, ABŞ-ın regionda müttəfiqlərinə və bazalarına zərbə endirməklə öz şərtlərini qəbul etdirəcəklər. Bununla Vaşinqton müharibədən çəkinəcək. ABŞ-ın dövlət katibi Mayk Pompeonun İrana səfər etmək və danışıqlar aparmaq təklifi əsasən Şimali Koreya presedentinin təkrarıdır. Həmin vaxtlar ABŞ gəmiləri Şimali Koreya sərhədinin yaxınlığında lövbər salmışdı və qırıcı təyyarələri yaxınlıqda döyüş uçuşları keçirirdi. Vaşinqton hesab edir ki, əzələ nümayiş etdirməklə Pompeo əlverişli şərtlərlə İranı razılığa gətirə biləcək". M.Əsədullazadə dedi ki, Ruhani administrasiyası ABŞ-la danışıqlarda maraqlıdır: "Mötədil islahatçılardan fərqli olaraq, mühafizəkarlar əsasən dini hakimiyyət onların əlində olduğu üçün Vaşinqtonla mümkün dialoqu rədd edirlər. İran rəsmiləri artıq ABŞ-ın dialoq təklifini rədd etdi. Vaşinqton Hörmüz boğazında İrana qarşı koalisiya təşkil edəcək, İranın neft satışına və tankerlərinə mane olacaq və həbs edəcəklər".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# ABŞ erməniləri məyus edir



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Ermənilərin türkə qarşı ədavəti bəlkə də Qiyamətə kimi çəkəcək. Bu da tipik erməni həyasızlığıdır ki, bir yandan rəsmi İrəvan və erməni lobbisi saxta soyqırımı iddiasının dünyada, illah da ABŞ tərəfindən tanınmasına çalışır, bundan ötrü ağlagəlməz paralar xərcləyir (həmin pullar ən azı, ac-yalavac erməni uşaqlarını doyuzdurmağa və onların müalicəsinə yönəldilə bilərdi), digər yandan isə Türkiyə ilə ön şərt qoyulmadan sərhədlərin açılmasına çağırış edirlər.**

Hərçənd bu məsələdə ermənilər nəyə mümkünsə, ona nail olublar. Artığı gözlənilmir. Son 54 il ərazində saxta soyqırımı tanıyan 26 ölkə içində (dünyada 200-dən çox dövlət var) cəmi 2 müsəlman ölkəsinin (yarım-xristian Livan və Suriya) olması, əksəriyyətinin isə Türkiyənin üzv olmaq istədiyi Avropa Birliyi ölkələrinin olması özlüyündə çox şey deyir. İddianın tarixi-hüquqi yox, sırf siyasi anlam daşıdığını, qardaş ölkəyə qarşı xristian dünyasının təzyiq vasitəsi olduğuna şəkk-şübhə saxlamır. Heç ermənilərin ənənəvi simsarı İran da bu məsələni ciddi saymır.

Ermənilər isə on illərdir dəridən-qabıqdan çıxırlar ki, dünyanın 1 nömrəli dövləti ABŞ da tanınma qərarına getsin. ABŞ isə Türkiyənin ondan ötrü önəmini qulaqardı edə bilmir. Düz edir. Heç bir tarixi sənədə, fakta əsaslanmayan iddianı tanımaq Ştatlara nə verəcək ki? Aydındır ki, Türkiyə bu tanınmanın ertəsi günü üzr istəyib, böyük təzminat ödəyib Vanı, Ağrıdağı dərhal Ermənistana bağışlayası deyil. Amma tanınma qərarının bədəli Amerika üçün ağır ola bilər: ABŞ regionda çox mühüm hərbi-siyasi dayağını, müttəfiq-tərəfdaşını həmişəlik itirə bilər - İncirlikdəki hərbi bazası ilə birgə. Üstəlik, Türkiyə qeyri-müəyyən müddətə Rusiyanın dostuna çevrilər.

Bununla belə, ermənilər yenə ümidlidirlər ki, Ankara-Vaşinqton münasibətləri S-400-lərə görə geridönməz şəkildə korlanacaq. Yaxşı ki, proses xain qonşularımızın ürəyincə getmir. Hər iki tərəfin müdrik adamları təmkini saxlayır, radikal qərarlardan çəkinirlər. Məsələn, ABŞ son olaraq Türkiyədən xahiş edib ki, S-400-lər tezliklə aktivləşdirilməsin. Ankara da bəyan edib ki, ən azından, gələn ilin aprelinədək bu sistemlər döyüş növbətçiliyinə qoyulmayacaq.

Demək, minimum, gələn ilin aprelinədək sakitlik olacaq. Hərgah, türkiyəli millət vəkili Öztürk Yılmaza görə, tarix qismində məhz 2020-ci ilin aprelinin seçilməsi yanlışdır, çünki o vaxt saxta soyqırımın ildönümü olduğundan (24 aprel), məsələ Konqresin müzakirəsinə çıxarıla və tanınma qərarı verilə bilər. O, təklif edib ki, aktivləşdirmə ya apreldən tez olmalı, ya da ondan sonraya saxlanmalıdır.

Ancaq, bizcə, millət vəkilinin təlaşı əsassızdır. Artıq vurğulandı, ABŞ üçün Türkiyənin önəmi zamana bağlı deyil. Erməniləri umsuq edən də budur. Deyəsən, onlar indi-indi anlamağa başlayıblar ki, saxta iddianın tanınması məsələsi heç də Qərbdəki böyük güclərin ermənilərə simpatiyasından yana yox, sadəcə, Türkiyəyə qarşı təzyiq vasitəsi kimi ortaya çıxıb və həm də artıq xeyli köhnəlmiş bir vasitədir.

O da bəlli ki, ABŞ-da prezident seçkisi kampaniyasında bəzi namizədlər bundan erməni seçicilərinin səsini əldə eləmək üçün istifadə eləməyə çalışırlar. Bu dəfə də, yəqin ki, istisna olmayacaq. Artıq gələnilki seçkilərdə Demokrat Partiyasından namizəd Berni Sanders seçiləcəyi təqdirdə "erməni soyqırımı"nı tanıyacağını vəd edib. Ermənistanda isə belə vədlərə şübhəli yanaşırlar. Çünki "Başına gələn başmaqçı olar".

Bundan çıxış edən erməni şərqşünas-türkoloq Ruben Safrastyan hesab edir ki, Sandersin vədinin taleyi prezidentliyə digər namizədlərin bu barədə verdikləri sözlərdən fərqlənməyəcək. Sitat: "Təcrübə göstərir ki, ABŞ prezidentliyinə bütün namizədlər seçkidən öncə belə vədlərlə çıxış etsələr də, sonradan sözlərini "unudurlar". Hər şey Türkiyə-ABŞ münasibətlərindən asılı olacaq. Hazırda onun gərgin olduğunu bilirik. Lakin Vaşinqtonun Türkiyəni daha da qızışdırmağı gözə alaraq "erməni soyqırımı"nı tanıyacağını söyləmək çətindir".

Safrastyan Ankara və Vaşinqton arasında əvvəllər də belə gərginliklərin yaşandığını, lakin erməni məsələsinin heç zaman Türkiyəyə təzyiq aləti kimi istifadə olunmadığını yada salıb. "Ona görə də bu yöndə hansısa dəyişikliyin baş verəcəyinə ümid etməyə dəyməz", - deyə o, əlavə edib.

Erməni də olsa, düz deyir...

**Bu günlərdə AzTV QSC-nin sabiq sədri Arif Alışanovun yeni ailə həyatı qurması ilə bağlı sosial şəbəkələrdə, eləcə də bir sıra mətbuat orqanlarında məlumatlar yayıldı. Məlumata görə, A.Alışanov müğənni, eləcə də "Mədəniyyət" kanalında bir müddət aparıcı kimi çalışan Ayşən Məstanova (Şakirqızı) ilə evlənib. İddialara görə, sabiq sədrin yeni xanımı ondan nə az, nə çox, düz 20 yaş kiçikdir.**

# Yenidən ailə qurduğuna görə tənqid olunan tanınmışlar - səbəb nədir?

## Əhməd Qəşəmoğlu: "Kiminsə boşanmasının, ailə qurmasının tələsik qınanılmasının tərəfdarı deyiləm, ancaq..."



Əslən Naxçıvandan olan A.Məstanova barəsində də maraqlı faktlar bildirilib. Deyilənə görə, o, hələ iki il əvvəl telekanala işə düzəlib. Mədəniyyət və İncəsənət Universitetinin məzunu olan aparıcı-müğənni əvvəllər Rusiyada yaşayan bir azərbaycanlı ilə ailəli olub və onunla olan nikahdan 1 övladı var. Həmçinin Arif Alışanovdan da bir oğlu olduğu deyilir. A.Məstanova Alışanov işdən çıxarılan gün - 2019-cu ilin 15 yanvarında AzTV-dəki işindən uzaqlaşıb.

Ekspress.az saytının yazdığına görə, Alışanovun yeni qayınanası Gülbahar Haqverdiyeva 23 aprel 2019-cu ildən Sumqayıt Təhsil Şöbəsində Metodikabinənin müdiri vəzifəsində çalışır. O, Sumqayıtda "Təfəkkür" liseyində də direktor olub. G.Haqverdiyeva Təhsil Nazirliyinin kurikulum üzrə təlimçisi, Sumqayıt Şəhər Təhsil Şöbəsi üzrə YAP ilk ərazi təşkilatının sədri, eyni zamanda Sumqayıt Şəhər YAP Siyasi Şurasının üzvüdür.

Arif Alışanov hələ Mehriban Alışanova ilə boşanmamış Ayşən Məstanova ilə isti münasibətləri olub. Belə ki, Arif Alışanov 2018-ci ildə Ayşən Məstanovaya qara rəngdə "Mercedes-Benz" markalı bahalı avtomobil alıb. Avtomobilin qiymətinin 100 min manat dəyərində olduğu deyilir. Hətta Ayşən Məstanova AzTV-yə işə də həmin avtomobillə gəlib-gedirmiş. Həmin vaxtı Arif Alışanovun həyat yoldaşı olan Hesablama Palatasının auditoru Mehriban Alışanova bundan xəbər tutan kimi ərindən boşanmağa qərar verib. Onlar tez müddətdə məhkəməyə müraciət edərək boşanıblar. Arif Alışanovun əvvəlki həyat yoldaşı Mehriban Alışanovadan 3 qız övladı var.

Beləliklə, Alışanovun yeni evliliyi və onun ətrafında yayılan məlumatlar bir müddətdir ki, müzakirə olunmaqdadır. Əksəriyyət AzTV QSC-nin sabiq sədrini özündən 20 yaş xanımla evlənməsini, bu münasibətə görə əvvəlki xanımından boşanmasını qınayır və yaxud tənqid edir.

Qeyd edək ki, buna qədər bir çox tanınmış güclü cinsin nümayəndələrinin ikinci və yaxud üçüncü evliliyinə görə tənqidlərlə üzləşdiyinin şahidi olmuşuq. Məsələn, xalq artisti Niyaməddin Musayevin bir neçə dəfə ailə qurduğu barədə məlumatlar var. Hətta deyilənə görə, xalq artisti övladlarının birinin anasını analıq hüququndan məhrum edib. Bu barədə danışmağa meyilli olmayan xalq artistinin bir neçə il öncə özündən 28 yaş kiçik sevgilisi olduğu barədə məlumat yayılmışdı. Həmin sevgilisinin isə gənc ifaçı Türkan İskəndərli olduğu deyilirdi. Lakin sonradan hər iki tərəf bu xəbəri yalanlamışdı. Buna baxmayaraq, uzun müddət bu məsələ ətrafında gedən söz-söhbət səngiməmiş, 79 yaşlı xalq artisti "yeni eşq macərası"na görə tənqidlərlə üzləşmişdi.

Və yaxud xəstəlik səbəbi ilə dünyasını dəyişən reper Anar Nağılbazın ikinci dəfə evlənməsi xəbəri günlərlə mətbuatda müzakirə edilmişdi. Qeyd edək ki, reper Anjelika Cəbiyeva ilə evli olub və onlar qalmaqallı şəkildə boşanıb. Daha sonra o, Aytən adlı qızla evlənib. Bir müddət bu evliliyin yalan olduğu, hətta reperin Aytən adında, ümumiyyətlə, sevgilisi olmadığı deyilsə də, sonradan onların nikah şəhadətnaməsinin görüntüləri yayılmışdı.

"Şeron" qrupunun üzvü olan Rüstəm Zeynallı da iki dəfə ailə qurub. İkinci dəfə ailə qurduğu Həcər xanım xalq artisti, qarmon ustası Aftandil İsrafilovun qızıdır. Həcərlə Rüstəm 2008-ci il noyabrın 11-də keçirilən toy mərasimi ilə vətəndaş nikahına daxil olublar. Onların rəsmi nikahı olmayıb. Lakin ötən il müğənninin ikinci arvadından boşandığı barədə məlumatlar yayıldı. Müğənni bu evliklərə görə bəzən sosial şəbəkə izləyiciləri tərəfindən tənqid olunub.

Amma bunun fonunda tanınmış xanım sənətçiləri var ki, onlar iki və daha çox evlilik yaşasalar da, əks cinsin nümayəndələri qədər sərt reaksiyalarla rastlaşmayıblar. Məsələn, xalq artisti Flora Kərimova 3 dəfə ailə həyatı qurub. Onun ilk həyat yoldaşı məşhur cərrah İbrahim Topçubaşovdur. Onunla tanışlığı Topçubaşovun Flora xanıma mahnı verməsi ilə başlayıb. Flora xanımın ilk evliliyi çox gənc yaşlarında olsa da, Topçubaşov ondan 20 yaş böyük olub. Onun ölümündən bir neçə il sonra azərbaycanlı biznesmen Faiq Şəfiyevlə ailə həyatı qurur. Onun bu evlilikdən bir qızı var. Faiq bəyi də yol qəzasında itirən Flora xanım 3-cü dəfə ailə həyatı qursa da, onun bu həyat yoldaşı da dünyasını dəyişir.

Əsl adı Aynurə Qəzənfərli olan Nura Suri də 3 dəfə ailəli olub. Hər evlilikdən bir oğlu olan Nura xanımın həyat yoldaşlarının tam adı məlum olmasa da, hər çıxışında həyat yoldaşlarının tanınmış iş adamı olduğunu bildirir. Onun ikinci evliliyi iranlı iş adamı Əlirza Suridir və Nura Suri ilə ayrılığı kifayət qədər qalmaqallı olub.

Eləcə də Şəbnəm Tovuzlu da 3 dəfə ailə həyatı qurub. Onun ilk evliliyi Ərşad adlı müğənni ilə olub. İkinci evliliyi Famil Xəlilov adlı biznesmenlə olub. Sonuncu və hazırda da birlikdə olduğu şəxs Hacı ləqəbi ilə tanınan biznesmendir. Bu şəxslə rəsmi nikahı olmadığı söylənilən Şəbnəm Tovuzlunun iki övladı var.

**Mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu** "Yeni Müsavat"a danışıb: "Hazırda cəmiyyət gündən-günə sürətlə mürəkkəbləşir, dəyərlər, baxışlar daha fərqli olur. Ümumiyyətlə, Arif Alışanov olmasın, digəri barəsində də bu mövzuda danışmaq, müzakirə etmək doğru deyil. Çünki bu, şəxsi həyatdır, ola bilsin ki, əvvəlki həyat yoldaşı ilə yaşamaq dözülməz hala gəlib çatıb və boşanıblar. Vurub bir-birini öldürməyəcəkdilər ki. Ayrılıblar və bundan sonra yenidən ailə həyatı qurub ki, bu da normaldır. Ümumiyyətlə, niyə görəsə cəmiyyətimiz hələ də buna hazır deyil. Cəmiyyətimizdə onlarla, yüzlərlə bu cür faktlar var. Çox təəssüf ki, son vaxtlar boşanmaların da sayı kəskin artmağa başlayıb. Məhkəmə işçiləri ilə söhbətləşəndə məlum olur ki, artıq yaşlı adamlar arasında da boşanmaların sayı kifayət qədər artıb. Heç kəs istəməz ki, uzun müddət bir yerdə yaşadığı insandan ayrılsın. Amma cəmiyyət elə bir sürprizlər ortaya çıxarır, ailədəki konfliktlər daha qabarıq şəkildə özünü göstərir. İllər öncə bu, yox idi, ona görə ki, ailə standartları, dəyərləri var idi, insanların ailə haqqında təsəvvürləri başqa cür idi. İndi, çox təəssüf ki, sanki ailə institutumuz zamanın axarının əlində qalıb. Cəmiyyətdə ailə institutunun möhkəmlənməsi barədə də heç bir işlər aparılmır, addımlar atılmır. Ona görə də mən indiki vaxtda kiminsə boşanmasının, ailə qurmasının tələsik şəkildə qınanılmasının tərəfdarı deyiləm".

Bir faktı da qeyd edək ki, tanınmışların 2 və daha çox nikaha girməsi artıq adi hal kimi qarşılansa da, ictimaiyyətin özündə bu məsələyə fərqli yanaşma var. Belə ki, hələ Sovet dövründən bu günə qədər ailəsini itirən və ya boşanan qadının növbəti dəfə ailə qurması heç də müsbət qarşılanmır. Qadın ikinci dəfə ailə qurduqda bəzən qınaqlara, suçlamalara, basqılara məruz qalır. Cəmiyyətdə kök salan stereotiplərə, düşüncə tərzimizə görə, qadın fədakar, dözümlü olmalı, anadırsa öz həyatını qurmamalı, yalnız öz övladına görə yaşamalıdır. Araşdırmalar onu göstərir ki, ictimaiyyətdə boşanan kişilərin yenidən evlənmə nisbəti qadınlarla müqayisədə daha çox və tezdir. Məsələn, 2017-ci ilin statistikasına görə, Azərbaycanda 4502 boşanmış 703 dul kişi, 2353 boşanmış 168 dul qadın ailə qurub.

Boşanaraq yenidən ailə quran kişilər daha çox 30-34 yaşlılar, dul kişilər isə yaşı 60-dan çox olanlardır. Qadınlara gəldikdə isə, yenidən nikaha daxil olan boşanmış qadınlar daha çox 25-29 yaşlılar, dul qadınlar isə 50-59 yaşda olanlardır.

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Dünyada nikahdankənar doğulanların sayı artır, Azərbaycanda isə...



**Dünyada, xüsusən Avropada ənənəvi nikahların sayında azalma müşahidə olunur.**

Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, cütlüklər get-gedə daha az hallarda nikahlarının dövlət tərəfindən rəsmiləşdirilməsinə çalışır. Bu tendensiya Şimali Amerika və Avropa ölkələrində müşahidə olunsa da, artıq Şərq ölkələrinə də sirayət edib.

Fransada doğulan uşaqların 60%-i nikahdankənar dünyaya göz açır. Analoji göstərici Bolqarıstan və Sloveniyada 59%, Estoniyada 56%, İsveçdə 55%, Danimarkada 54%, Portuqaliyada 53% və Hollandiyada isə 50%-dən çoxdur. Nikahdankənar doğulan uşaqların sayının azlıq təşkil etdiyi ölkələr sırasında Yunanıstan (9%), Xorvatiya və Cənubi Kirp (18%) yer alır.

ABŞ, Kanada və Braziliyada nikahdankənar doğulanların sayı ümumi doğulanların 20-25%-ni təşkil edir. Amma Ekvador, Kolumbiya və Peru kimi ölkələrdə həmən göstəricinin 5-10% arasında olması müşahidə olunur.

Cənubi Qafqaz regionuna gəlincə, Ermənistan və Gürcüstan regionda rəsmi izdivaca girmədən övlad sahibi olan ölkələr arasında liderdir. Azərbaycanda nikahdankənar doğum halları 2016-cı ildə pik həddinə çatıb. Həmin il 26 min 288 körpə rəsmi nikahdan kənar dünyaya göz açmışdı. Bu həmin ildə doğulan uşaqların 15,1%-ni təşkil edirdi.

Ötən il Azərbaycanda rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən 20 716 uşaq dünyaya gətirilib. Bu rəqəm 2017-ci ildə 22 796, 2016-cı ildə 26 288, 2015-ci ildə 24 038, 2014-cü ildə 25 486 olub.

2018-ci ildə isə nikahsız qadınlar tərəfindən doğulan uşaqların sayı ölkədə bütün diri doğulan uşaqların 14,9 faizini təşkil edib ki, bu göstərici də 2014-cü il üzrə eynilik təşkil edib. 2014-cü ildə nikahda olmayan qadınlar tərəfindən 25 486 uşaq dünyaya gətirilib ki, onun 14,9 faizini rəsmi nikahı olmayan qadınların dünyaya gətirdiyi uşaqlar təşkil edib. Nikahsız qadınların dünyaya gətirdiyi uşaqlar daha çox kənd yerlərində dünyaya göz açıb.

# "Əl-Qaidə" geri dönür-İŞİD kölgədə qalacaq, yoxsa...

## Politoloq: "Terror xoxanı görəvini "Əl-Qaidə"yə verirlər"

**Bir zamanlar dünyanın qorxulu röyasına çevrilən "Əl-Qaidə" terror təşkilatının geriyə dönüşü yönündə həyəcanlı xəbərlər dolaşmaqdadır. Bununla bağlı ABŞ Dövlət Departamentinin terrorla mübarizə məsələləri üzrə koordinatoru Nathan Saylesin son açıqlamaları kifayət qədər ciddidir.**

O bildirib ki, "Əl-Qaidə" terror təşkilatı son illərdə daha da güclənib və tərəfdarlarının sayını artırıb. Son illərdə İŞİD-in daha çox diqqət mərkəzində olduğunu qeyd edən ABŞ rəsmisinin sözlərinə görə, nisbətən kölgədə qalan "Əl-Qaidə" zəif dövlət hakimiyyəti, münaqişə zonaları və beynəlxalq təhlükəsizlik sistemindəki boşluqlardan istifadə edərək yeni tərəfdarlar toplayıb, terror hücumları hazırlayır. Amerikalı ekspert deyib ki, hazırda "Əl-Qaidə" şəbəkəsinin gücü 2001-ci ilin 11 sentyabr hadisələri zamanında olduğundan daha çoxdur.

Bu yerdə xatırlatmaq yerinə düşər ki, cari ilin əvvəlində ABŞ hökuməti "Əl-Qaidə" terror qruplaşmasının keçmiş lideri Usəma bin Ladenin oğlu Həmzə barədə məlumat verən şəxsə bir milyon dollar mükafat təyin edib. Amerika Həmzə bin Ladenin terrorçu qruplaşmanın yeni rəhbəri olacağından ehtiyat edir. Bu da terror təşkilatının getdikcə dirçəldiyi yönündə deyilənləri dolayısı təsdiqləyir.

"ƏL-Qaidə"nin nə üçün "dirildiyi", eləcə də illər öncəki terror təşkilatı kimi təhlükəli olub-olmayacağı istiqamətində müxtəlif fikirlər səslənir. Həmçinin terror qruplaşmasının İŞİD-ı kölgədə qoya bilib-bilməyəcəyi yönündə də müzakirələr gedir. "Əl-Qaidə"nin yenidən gündəmə gəlməsində bəzi maraqlı dairələrin, bir sıra dövlətlərin əlinin olduğu da iddia edilir.

**Politoloq Əhəd Məmmədlinin** düşüncələrinə görə,



"Əl-Qaidə"nin gündəmə gəlməsində ABŞ-ın özü maraqlıdır: "Fikrimcə, "Əl-Qaidə" son illərdə çox zəifləyib. Əgər Departament rəsmisi "Əl-Qaidə" güclüdür, yeni terror aktlarına hazırlaşır mesajını verirsə, deməli, Amerikanın bu terror təşkilatını yenidən meydana çıxartmaq fikri var. DAİŞ-in epoxası bitməkdədir. Müqəddəs yer boş qalmamalıdır prinsipi ilə hərəkət edən ABŞ, görünür ki, "Əl-Qaidə"ni yenidən diriltmək fikrindədir. İndiyə qədər qurulan bütün terror təşkilatlarının arxasında müxtəlif dövlətlərin xüsusi xidmət orqanları durur. İstinasız bu belədir. Ən azından xüsusi xidmət orqanları ya öz agentlərini sonradan yerləşdirir, ya da terror təşkilatının daxilində "verbovka" işləri ilə məşğul olur. Eyni vaxtda hər ikisini də edə bilərlər. "Əl-Qaidə" heç 2011-ci ildə belə ən güclü qeyri-leqal hərbi qruplaşma deyildi. Müqayisə etsək görərik ki, Taliban hərəkatı "Əl-Qaidə"dən bütün dönəmlər daha güclü olub. Talibanın həmişə rəsmi ordusu, sabit sistemi olub. Ona görə də gerilla mühaibəsində nə sovetlər, nə də indi ABŞ Talibanı məhv edə bilmədi. Taliban hərəkatının sistemi hələ əfqan-rus müharibəsində Pakistan düşərgələrində qurulub. "Əl-Qaidə"nin isə nəinki sabit, ümumiyyətlə, ordusu olmayıb. Ordu mövcudluğu ilə "Əl-Qaidə"nin Suriya qolu Nüsrə-Cəbhəsi və Somali uzantısı Əş-Şabab öyünə bilərlər. "Əl-Qaidə"nin ən uğurlu modeli bu iki hərbi qruplaşma olub. Ordu deyəndə, təbii ki, biz həmin hərbi təşkilatların miqyasını nəzərə alaraq söyləyirik. Ərəb dünyasında qeyri-leqal siyasi-hərbi təşkilatlar içində ən güclü və geniş orduya vaxtında DAİŞ malik idi. İndi isə bu yöndə Türkiyənin dəstəklədiyi ASO və Əhrar-əş Şamla, Həması qeyd edə bilərəm. Şiə-ərəb təşkilatları arasında isə Müqtəda əs-Sədrin başçılığı altında "Mehdi ordusu" və Hizbullahı göstərmək olar. Bin-Ladenin oğlunun başına bir milyon mükafat elan etməklə, görünür, Pentaqonla Mərkəzi Kəşfiyyat İdarəsi artıq formal təşkilata çevrilən "Əl-Qaidə"ni dirçəltmək istəyirlər. Bu yaxınlarda "Əl-Qaidə"nin imzası ilə yeni terror dalğası başlasa təəccüblənmərəm. Bu terror təşkilatını işə salmaqla Vaşinqton ərəb coğrafiyası üçün yeni planlar hazırlayır. "Əl-Qaidə"nin Avropa və Amerikada törədə biləcəyi terror aktlarını bəhanə edərək Vaşinqton ərəb dünyasında bərkimək, zəifləmiş vəziyyətini gücləndirmək üçün yeni lokal müharibələrə hazırlaşır. Departament rəsmisi, terror uzmanı Nathan Saylesin "Əl-Qaidə" mesajını bu səpkidə qiymətləndirirəm".

Politoloq istənilən halda bu terror təşkilatının özbaşına geri qayıtmadığını da qeyd etdi: "Onları qaytarırlar. Əgər qaytaracaqlarsa, deməli, daha güclü, təhlükəli görüntü ilə qaytaracaqlar. "Əl-Qaidə" meydana qayıtsa, epoxası bitən İŞİD-i asanlıqla kölgəsində qoyacaq. Necə ki, bir neçə il bundan əvvəl İŞİD az qala "Əl-Qaidə"ni unutdurmuşdu. Görünür, yenidən terror xoxanı görəvini "Əl-Qaidə"yə verirlər. Bu olacağı təqdirdə qürub çağını yaşayan İŞİD əvəzedicilər skamyasına otuzdurulacaq, amma tam meydandan götürülən deyil. Bir terror təşkilatının adı "İslam dövləti" qoyulursa, bu "uğurlu" proyekti sahibləri heç vaxt məhv etməzlər. "Əl-Qaidə" də, İŞİD də eyni kolodun kartlarıdır, sadəcə, sahiblərinin əllərinə baxırlar. Yuxarıda qeyd etdiyim kimi, "Əl-Qaidə" Yaxın Şərqdə ABŞ-ın yeni, məkrli, qanlı projelərini həyata keçirmək üçün dirildilir. "Əl-Qaidə" və İŞİD MKİ, Mi-6 və Mossadın əl işləridirlər. Sadəcə, öz işini görən bir mavr-İŞİD gedir, yeni tapşırıq almaq ərəfəsində olan digər mavr-Əl Qaidə qayıdır. Necə ki, "Əl-Qaidə" olaq edirlər. Strategiya da işğalçılar tərəfindən müsəlman coğrafiyasını işğal etmək, sümürmək üçün şərait, zəmin yaratmaq və İslamı din kimi gözdən salıb sekulyar-kapitalizmə yeganə alternativ ideologiya kimi bitirməkdir. Lakin bu, mümkün olmayam bir məqsəddir. Çünki tarix göstərdi ki, müsəlmanları işğal etmək olar, amma İslam ideologiyasına qalib gəlmək mümkünsüzdür".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Britaniyanın yeni baş naziri üçün ilk sınaq-körfəz krizisi

## Avropa İttifaqından şərtsiz ayrılmağı vəd edən Consonla bağlı ən böyük qorxu onun Trampın "əlavəsi" olmasıdır

**Dünya siyasətinin əsas mövzularından biri də Boris Consonun Böyük Britaniyanın baş naziri seçilməsidir. 55 yaşlı Boris Conson Osmanlı İmperiyasının son hökumət kabinetində daxili işlər naziri olmuş Əli Paşanın nəticəsidir. Ancaq indi onun türk əsilliliyindən daha çox, dünyanın ən qədim və böyük dövlətlərindən birinin hökumətini necə idarə edəcəyidir. Conson özü isə baş nazir ofisi qarşısında etdiyi ilk çıxışında bütün problemləri həll edəcəyini deyib və seçicilərin ona güvənməsini istəyib. Yeni baş nazir deyib ki, Aİ yenidən müzakirələri başlatmağa razı olmayacağı təqdirdə Britaniya İttifaqdan çıxacaq.**

BBC isə yazır ki, indi Consonla bağlı 3 əsas məsələ maraq doğurur: "Brexit" və onun iqtisadi zərərləri, İngiltərənin xarici siyasətindəki ciddi sınaqlar, nəhayət, Consonun özünün qeyri-sabit siyasətçi olması. Boris Conson xalq tərəfindən deyil, partiyasının təxminən 160 min üzvünün üçdə ikisinin səsi ilə seçilib. Bundan başqa, onun ABŞ prezidentinə münasibəti ciddi problem yarada bilər. Üstəlik, yeni baş nazir hələ seçilməmişdən çox əvvəldən başlayaraq Aİ-də qalmağın əleyhdarı olub və bunun üçün kampaniya aparıb. Ancaq əsas narahatlıq ondan ibarətdir ki, Boris Conson mühafizəkar siyasətçidir və ABŞ-ın hazırkı prezidenti Trampla yaxındır. İndi İngiltərədə bir çoxları hesab edir ki, Conson baş nazir olduğu müddətdə Böyük Britaniya ABŞ-ın layihələrində vasitəyə çevriləcək. Söhbət xüsusən də Yaxın Şərqdə İran ətrafında gərginlik və müharibə riskindən gedir. Britaniyanın mühafizəkar "Times" qəzeti "Trampın pudeli" (ev iti) kimi göstərən karikatura yayımlayıb.

BBC xəbər verir ki, Consonun hökuməti bürokratlarla böhrana girə bilər. Çünki ənənəyə əsasən, İngiltərə hökumətini baş nazir və nazirlər faktiki olaraq müstəqil olan bürokratiyanın dəstəyi ilə idarə edir. Ancaq bürokratiya ilə kabinet arasında anlaşılmazlıq yarananda dövlət idarəsində böhran yaranır. Üstəlik, yaxın vaxtlarda keçiriləcək yerli seçkilərdə Consonun partiyasının səsləri daha da azala bilər. Bu isə baş nazir üçün daxildə ciddi təzyiqin olması deməkdir.



Ancaq yeni baş nazir qətiyyətlidir. Conson bildirib ki, parlament xalqın qərarını icra edəcək və 31 oktyabrda Britaniya Avropa İttifaqından "ammasız və fəqətsiz" çıxacaq.

Maraqlıdır ki, Boris Consonun ilk təyinatı maliyyə naziri postuna Sacid Cavidi təyin etməsi olub. 44 yaşlı yeni xarici işlər naziri Dominik Raab isə Britaniyanın Aİ-dən anlaşma olmadan çıxmasını "düşünüldüyü qədər də pis olmadığını" deyib.

Ancaq indi dünyanı "Brexit"dən daha çox, Yaxın Şərqdəki vəziyyət narahat edir. Məsələ ondadır ki, iyulun 4-də Britaniya Cəbəllütariq boğazında İrana məxsus neft tankerini həbs edib. Buna cavab olaraq İran hökuməti Fars körfəzində hərəkət edən Britaniyaya məxsus iki tankeri saxlayıb. Bu hadisə London və Tehran arasında gərginliyi artırıb. İngilis hökuməti Fars körfəzinə əlavə gəmilər göndərəcəyini bəyan edib.

Maraqlıdır ki, İran prezidenti Böyük Britaniyanın yeni seçilmiş baş nazirini təbrik edib. Həsən Ruhaninin ofisindən verilən məlumata görə, İran prezidenti Boris Consonun İran və İngiltərə əlaqələrinə dostcasına münasibəti və eləcə də Consonun Tehrana səfərinin iki ölkə arasında əlaqələrin inkişafı önündəki əngəllərin qalxmasına yardımçı olacağına inandığını qeyd edib.

Ancaq indi əsas narahatlıq ondan ibarətdir ki, yeni baş nazir Conson ABŞ prezidenti Donald Trampın təsiri altındadır. Bu isə o deməkdir ki, İraq müharibəsi zamanı Toni Blerin etdiyini İrana qarşı ehtimal olunan müdaxilə zamanı Conson da təkrarlaya bilər. Yeri gəlmişkən, iyulun 19-da İran ordusu Britaniya tankerinə həbs qoyduqdan sonra ilk olaraq Tramp İngiltərə hökumətinə dəstəyini ifadə edib. Eyni zamanda tanker əməliyyatından sonra Britaniya hakimiyyəti faktiki olaraq ABŞ-ın müttəfiqinə çevrilib. Conson olmasa belə, hər hansı nazir indiki vəziyyətdə Vaşinqtonla koordinasiyalı çalışardı. Yalnız o var ki, Tramp kimi Conson da praqmatikdir və müharibənin risklərini anlayır. Bu isə o deməkdir ki, yeni baş nazir münaqişənin daha da böyüməsində maraqlı olmayacaq. Əlbəttə, siyasi şərtlər daxilində.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019

# Qurbanlıq qoyunlar Bakıya gətirilir - qiymətlər

## Paytaxt kəndlərində qurbanlıq heyvanların satışına başlanılıb

**Azərbaycanda 12-13 avqust tarixində Qurban bayramı qeyd olunacaq. Hər il olduğu kimi, artıq indidən qurbanlıq qoyunlar Bakıya gətirilib, satılır. Qiymətlər isə ötən illə müqayisədə bir qədər bahadır.**

"Yeni Müsavat" xəbər verir ki, hazırda qurbanlıq qoyunlar daha çox Bakı kəndlərinə gedən yollarda satılır. Hələ ki, yarmarkalar fəaliyyətə başlamayıb. Lakin bayrama bir həftə qalmış Bakının müxtəlif yerlərində Qurban bayramı ilə əlaqədar yarmarkaların təşkil ediləcəyi gözlənilir.

Hazırda qurbanlıq ətin kiloqramı 14 manatdan hesablanaraq satılır. Qurbanlıq qoyunların satıldığı yerlərdə ən aşağı qiymətin180 manat olduğunu öyrənirik. Satıcılar bildirdilər ki, nisbətən yaşlı heyvanın əti ucuzdur. Lakin quzu ətinin kiloqramı 14 manatdan aşağı deyil.





Qurban bayramı ərəfəsində şəhərin müxtəlif yerlərində, yol kənarlarında heyvanlar kəsildiyi üçün ətraf ərazidə natəmizlik yaranır. Bu da sosial şəbəkələrdə Qurban bayramına qarşı çıxan kəsimin əlində arqumentə çevrilir.

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən** "Yeni Müsavat"a bildirilib ki, bu il kəsim yerləri ilə bağlı yeni addımlar atılacaq. Qurumdan bildirilib ki, "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar qurum ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, qanunsuz heyvan kəsiminin qarşısının alınması, istehlakçı hüquqlarının müdafiəsi istiqamətində yerli icra hakimiyyəti orqanları ilə birlikdə sahibkarlıq subyektlərini cəlb etməklə baytarlıq-sanitariya və sanitariya-gigiyena tələblərinə uyğun müasir (stasionar, modul və mobil tipli) heyvan kəsimi məntəqələrinin yaradılmasını təşviq edir:

"Qida Təhlükəsizliyi Agentliyi tərəfindən bayram günlərində ölkə ərazisində qurbanlıq heyvanların kəsiminin baytarlıq-sanitariya və gigiyena normalarına cavab verən stasionar və çadırtipli heyvan kəsimi məntəqələrində aparılması həyata keçiriləcək. Bu məqsədlə bayram günlərində 44 stasionar heyvan kəsimi məntəqəsi və 30 çadır tipli kəsim yeri lazımi avadanlıqlar ilə təmin ediləcək vətəndaşların ixtiyarına veriləcək.

Paytaxtda və respublikanın müxtəlif bölgələrində qurulması nəzərdə tutulan çadır tipli kəsim məntəqələri 3 hissədən ibarət olacaq. Birinci hissədə heyvanın kəsimi, ikinci hissədə soyulması, üçüncü hissədə isə doğranması prosesi tamamilə sanitariya-gigiyena tələblərinə uyğun həyata keçiriləcək. Sözügedən kəsim yerlərində ətin baytarlıq-sanitariya ekspertizasının aparılması məqsədilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun səyyar laboratoriyaları vətəndaşlara ödənişsiz xidmət göstərəcək".

Bildirilib ki, çadır tipli kəsim məntəqələri dezinfeksiya oluna bilən, tozun qarşısını alan xüsusi materialdan hazırlanıb: "Məntəqənin daxili döşəməsi də xüsusi materiallardan hazırlanıb və drenaj sistemi ilə təmin edilib ki, bu da kəsim zamanı heyvanın qanı və digər axıntıların kanalizasiya vasitəsilə kənarlaşdırılmasına, nəticədə ətraf ərazilərin çirklənməsinin qarşısının alınmasına imkan verəcək. Çadırtipli kəsim məntəqələri heyvanın kəsilməsi, soyulması və doğranmasına qədər bütün prosesi həyata keçirmək üçün paslanmayan metallardan hazırlanan, gigiyenik tələblərə uyğun lazımi avadanlıqlarla təchiz edilib. Çadırın yaxınlığında heyvanın dərisi və digər tullantıların daşınması üçün nəzərdə tutulan xüsusi konteynerlər qoyulacaq və həmin tullantılar ərazidən daşınacaq. Prosesə nəzarəti Agentliyin, yerli icra hakimiyyəti və hüquq-mühafizə orqanlarının əməkdaşları həyata keçirəcək".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Ağır vəziyyətdə olan 76 yaşlı ahıl kömək istəyir



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən reaksiya: "Onun döyüşlərdə iştirakına, yeni müharibə veteranı olmasına dair sənəd yoxdur"

**76 yaşlı Gəncə sakini Məmmədov Mahmud Həmid oğlu bu günlərdə "Yeni Müsavat"ın redaksiyasına gələrək aidiyyəti qurumlardan imdad diləyib: "Mən 1943-cü ildə Gəncə şəhərində anadan olmuşam. Sovet dövründə hərbi xidmətim zamanı tapşırığı yerinə yetirərkən ağır bədən xəsarətləri almışdım və buna görə ömürlük 2-ci qrup əlillik statusu aldım. Bütün gənclik dövrüm tibbi müəssisələrdə keçsə də, sağlamlığımla bağlı bir yenilik olmadı və gəncliyim, demək olar ki, puç oldu".**

Şikayətçinin sözlərinə görə sağlamlığındakı ciddi problemlərə baxmayaraq, 1992-ci ildə könüllü olaraq Qarabağdakı döyüşlərdə iştirak edib və bu zaman sağ ayağını itirib: "Hazırda bir ayağım protezdir. İlk protezimi də öz pulum hesabına Sankt-Peterburq şəhərində düzəltdirib almışam".

M.Məmmədov qeyd edib ki, 2008-ci ildə müayinədən keçərkən, onda ağır xəstəliklər aşkarlanıb:

"2008-ci ildə Neftçilər Xəstəxanasında tibbi müayinədən keçdiyim zaman məndə bronxit xəstəliyi müəyyən edildi. Təkrar müayinə zamanı isə həmçinin ağ ciyərimin hər iki payında ocaqlı vərəm tapıldı, baş beyin və ürəyin miokardının üç dəfə təkrar infarktı, revmatizm, qipotaniya və digər xəstəliklərin də diaqnozu qoyuldu. Hazırda cəmi 38 kq qalmışam. Vəziyyətim çox ağırdır.

Əlliliyimə görə ayda cəmi 95 manat məvacib alıram. Sağlamlığımla bağlı ciddi müalicələr almalıyam, amma aldığım məvacib heç yaşayışıma yetmir. Müraciət etdiyim dövlət xəstəxanaları da mənə pulsuz müalicə xidməti göstərməkdən boyun qaçırır".

Şikayətçi qeyd edib ki, bütün bunlarla yanaşı, hazırda yaşadığı evini də itirmək təhlükəsi var: "Doğulduğum vaxtdan yaşadığım Gəncə şəhəri, Kəpəz rayonu, Xəqani küçəsi, ev 20-nin sənədləri 2001-ci ildə itib, deyərdim ki, yaxın qohumlarım tərəfindən oğurlanıb. Evimin sənədlərini yenidən düzəltməyə çalışsam da, Daşınmaz Əmlak Məsələləri Dövlət Reyestri Xidmətindən mənə bildirdilər ki, faktiki ev mənim istifadəmdə olsa da, dövlət reyestrində qeydiyyatdan keçməyib. Bu o deməkdir ki, evim də hər an əlimdən çıxa bilər. Qeyd edim ki, bu evdə 1930-cu ildən atam Məmmədov Həmid Hacı oğlu və anam Məmmədova Ruqiyyə İsmayıl qızı və bacılarım yaşayıb. Özüm Moskvada ali təhsil almışam. Lakin xəstəliklər və başıma gələnlər ucbatından ailə həyatı qurmamışam və hazırda bütün çətinliklərim və əzablarımla təkbaşına mücadilə etməyə çalışıram. Aidiyyəti qurumlardan xahiş edirəm, hüquqlarımın bərpa edilməsində və sağlamlığım, maddi vəziyyətim ilə bağlı mənə köməklik göstərsinlər".

**Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** ilə əlaqə saxladıq. Qurumdan bildirib ki, adıçəkilən şikayətlə bağlı araşdırma aparılıb: "Gəncə şəhəri, Kəpəz rayon sakini, 1943-cü il təvəllüdlü, II qrup əlilliyi olan şəxs Məmmədov Mahmud Həmid oğlunun müraciəti ilə bağlı araşdırma aparılıb. Müəyyən edilib ki, M.Məmmədov 2003-cü il martın 1-dən ümumi səbəblərdən II dərəcə əlilliyi olan şəxs kimi aylıq əmək pensiyası ilə təmin olunur. 01 mart 2019-cu il tarixdən ölkəmizdə minimum pensiyanın 160 manata çatdırılması ilə əlaqədar onun da pensiyası 137 manatdan 160 manata çatdırılıb.

Vətəndaş ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etdiyini və bu döyüşlər zamanı sağ ayağını itirdiyini qeyd etsə də, onun həmin döyüşlərdə iştirakına, yeni müharibə veteranı olmasına dair nə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, nə də nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun Gəncə şəhərindəki qurumuna hər hansı rəsmi məlumat daxil olmayıb, belə bir sənədi özü də təqdim etməyib. Qanunvericiliyə əsasən, müharibə veteranı statusu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin arayışı əsasında verilir.

Əgər müharibədə iştirakını təsdiq edən arayış daxil olsa idi, M.Məmmədova müharibə veteranı statusu verilərdi. Yaxud vətəndaş həqiqətən sağlamlığını ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə itirmiş olsa idi, əlilliyinin qiymətləndirilməsi üçün verilmiş göndərişdə də bu, əksini tapar və 2003-cü ildə onun əlilliyinin səbəbi "ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar" kimi müəyyən edilər, pensiya ilə yanaşı, ona müharibə əlilləri üçün nəzərdə tutulan təqaüd də təyin edilərdi.

Ona görə də M.Məmmədov hazırda, qeyd etdiyimiz kimi, ümumi səbəblərdən II dərəcə əlilliyi olan şəxs kimi aylıq əmək pensiyası ilə təmin olunur. Hazırda tək yaşadığını qeyd edən M.Məmmədov müraciət edəcəyi halda evdə sosial xidmətlə, həmçinin nazirliyin reabilitasiya mərkəzlərində müalicə xidməti ilə təmin oluna bilər. Həmçinin müraciət edəcəyi halda birdəfəlik maddi yardımla təmin edilməsi məsələsinə baxıla bilər.

Vətəndaşın yaşadığı mənzillə bağlı itmiş sənədlərinin bərpası isə nazirliyin səlahiyyətlərinə aid deyil.

Onu da əlavə edək ki, M.Məmmədov müraciətində qeyd etdiyi telefon nömrəsinə dəfələrlə zəng edilməsinə baxmayaraq, o, zənglərə cavab verməyib".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019

# Milli Yaylaq Festivalı: ölkəmiz nə qazandı?

**Tanrıverdi Mustafayev:** " Festival bizə keçmişimizi xatırlatdı, turistlərə isə tariximizi öyrətdi"
**Nəsir Əhmədli:** "Müəyyən milli oyunlar, at yarışları nümayiş etdirirdilər"

**Azərbaycanda ilk dədə Milli Yaylaq Festivalı keçirildi. İyulun 26-dan 28-nə qədər Gədəbəy rayonunun ərazisində yerləşən Düzyurd-Miskinli yaylağında, nadir konsepsiya əsasında təşkil olunmuş ilk Milli Yaylaq Festivalına 16 ölkədən qatılan minlərlə iştirakçı-turist etno-qəsəbənin ərazisindəki yaşayış yurdları (alaçıqlar), "Cıdır meydanı", "Yaylaq bazarı", "Sənətkarlıq guşəsi", "Dədə Qorqud ocağı" (tamaşalar üçün səhnə), "Yaylaq yatağı", "Pəhləvan meydanı", "Aşıq Ələsgər ocağı", "Yaylaq süfrəsi" və digər tematik sahələrlə tanış olublar. El şənliyində yaradılan mədəni-etnoqrafik, milli yaylaq (idman) oyunları və eko-etnoturizm sahələri qonaqların marağına səbəb olub.**

Festival iştirakçıları aşıqların deyişməsini, milli rəqsləri (yallılar, cəngilər), tamaşaları, qədim xalq oyunlarını izləyib, yaylaq kulinariyasına aid təamlardan dadıblar. Burada tətbiqi sənət nümunələrinin satış-sərgisi də təşkil olunub. Meydana daxil olan çaparların yorğa atlarla çıxışı alqışlarla qarşılanıb.

Azərbaycanda yaşayan müxtəlif etnik qrupların, eləcə də xarici ölkə sənətçilərinin çıxışları isə festivalın bayram ovqatına əlavə rəng qatıb.

Festival çərçivəsində bir tərəfdə yorğa və çaparaq at yarışları, atüstü milli oyunlar, milli güləş yarışı, çoban güləşi, zorxana, oxatma yarışları keçirilib, digər tərəfdə qonaqlar və turistlər arasında kütləvi oyun yarışları - qurşaq, kəndirdartma təşkil olunub.

Festivalın sonunda, iştirakçıların paradından sonra mükafatlandırma olub. Milli Yaylaq Festivalına konsert proqramı ilə yekun vurulub. Kənd Təsərrüfatı Nazirliyindən "Yeni Müsavat"a bildirilib ki, Milli Yaylaq Festivalının təşkilində əsas məqsəd Azərbaycan xalqının zəngin və çoxəsrlik mədəni irsinin, yüz illərlə formalaşmış yaylaq və elat mədəniyyətinin, nadir mədəniyyət nümunələrinin və tarixi abidələrinin nümayiş etdirilməsi və ərazinin turizm potensialının üzə çıxarılmasından ibarətdir.

Festival Gədəbəy Rayon İcra Hakimiyyəti, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), "Cavadxan" Tarix və Mədəniyyət Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Atçılıq Federasiyası və Dünya Etnoidman Konfederasiyasının rəsmi dəstəyi ilə keçirilib.

Festivala turistlərlə yanaşı, Azərbaycandan da xeyli sadə vətəndaş, ziyalılar, deputatlar qatılıblar. Bu barədə sosial şəbəkələrdə çoxsaylı statuslar, fotolar paylaşılıb və festivalda yaradılan şəraitdən məmnunluq ifadə olunub.








**Festivalda iştirak edən "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev** bildirib ki, bu cür festivalların təşkil edilməsi olduqca əhəmiyyətlidir: "Mən özüm də yaylaqda böyüyüb, başa çatmışam. Orada yaradılan şəraiti çox bəyəndim. Əslində bütün bunlar bizim adət-ənənələrimiz, kökümüzdür. Bizim dədə-babalarımız necə yaşayıblarsa, orada da həmin mənzərəni göstərirdilər. Mənim uşaqlığımda da elə idi. Biz heç bir şeyi pulla almırdıq. Yeni zəhmət çəkirdik, mal-qoyun saxlayıb, əkin-biçinlə məşğul olurduq. Yayda yaylaqlara, qışda qışlaqlara köçürdük. Yaylağa köçən zaman yerin-yurdun qutlu olsun deyirdik. Geri qayıdanda qarın yağı, motal pendiri, motal şoru, mal-qara gətirirdik. Zəhmət çəkirdik, hamısının da bəhrəsini görürdük. Eyni zamanda xalça da toxuyurduq. Qoyunun yununu qırxıb, yuyub əyirirdik. Bütün bunlar hamısı zəhmət, halallıq idi. Yaylaq festivalına da baxan zaman biz bunları görüb, köhnə zamanlara qayıtdıq. Bildik ki, bizim kökümüz haradan gəlir. Zəhmətsevər xalq olaraq hamımız bu cür işləri görürdük. Biz Qaraqoyunlu dərəsindənik və orada 14 kənd olub. Hamımız da bu şəkildə yaşayıb, işləmişik. Bizə ancaq pul avtobusa vermək üçün lazım olurdu. O da rayon mərkəzinə hansısa sənəd və digər bu kimi şeylər üçün gedəndə avtobusa minirdik. Bu baxımdan festivalın əhəmiyyəti böyükdür. Bizə keçmişimizi xatırlatdı, turistlərə də tariximizi öyrətdi".

**Festivalda iştirak edən professor Nəsir Əhmədli** isə "Yeni Müsavat"a bildirib ki, bəzi çatışmazlıqla olsa da, bütövlükdə festivalı yüksək dəyərləndirir: "Tədbir kimi diqqəti cəlb edir və ilk dəfə idi ki, Azərbaycanda keçirilirdi. Ona görə də düşünürəm ki, tam yüksək səviyyədə keçmədi. Ancaq yaxşıdır ki, müəyyən milli oyunlar, at yarışları nümayiş etdirirdilər. Bundan əlavə də insanlar da bir-birləri ilə görüşürdülər. Müəyyən sənəd adamları, şairlər ora toplaşmışdılar. Bu mənada festivalı faydalı saymaq olar. Lakin, qeyd etdiyim kimi, çatışmayan tərəfləri də var idi. Bu da düşünürəm ki, ölkədə ilk dəfə keçirilməsi ilə bağlıdır. Fikir var ki, festivalı hər il keçirsinlər. Gələn il baxarıq, görək, necə olacaq. Orada turistlər də var idi, yerlilər də. Dedilər ki, 16 ölkədən turistlər iştirak edir. Mən özüm də hansı ölkədən gəldiklərini bilməsəm də, xeyli turist gördüm".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# DYP maşınlarının maketi yollara çıxarılır-reaksiyalar

**Elməddin Muradlı:** "Bildiyinizi danışın, bilmədiyinizi də öyrənin!"






**Yol polisi Azərbaycanda yol-nəqliyyat hadisələrinin qarşısını almaq, sürücülərin qaydalara əməl etməsini təmin etmək məqsədilə bir çox dövlətlərdə geniş tətbiq olunan təcrübəyə müraciət etməyə hazırlaşır. Yollarda YPX avtomobillərinin maketləri quraşdırılmağa başlayıb. Maket kənardan baxanda Yol Patrul Xidməti avtomobilini xatırladır. Daşına bilən maketlərin tez-tez yeri dəyişdiriləcək.**

**Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının komandir müavini , polkovnik Xosrov Nəcəfov** bildirib ki, yol polisi bununla bağlı Daxili İşlər Nazirliyinə təklif verib və təklif bəyənilərək həyata vəsiqə alıb.

"Nazirlik tərəfindən bu, qəbul olundu. Hazırda bir çox dövlətlərdə - Rusiya, Türkiyə bir çox ölkələrdə bu tətbiq olunur. Effekti də var. Sürücü nəqliyyat vasitəsini idarə edən zaman uzaqdan düşünür ki, YPX avtomobilidir əgər qaydaları pozursa tez özünü düzəldir. Kəmər taxmayıbsa taxır, sürətli sürürsə sürətini azaldır. Müəyyən müddətdən sonra bu maketlərin yerləri dəyişə bilər. Hətta onların üstündə xüsusi işıqlı mayakları da var. Gələcəkdə üzərinə radar quraşdırılacaq. Həmin maketlərə nəzarət olacaq. Kamera nəzarəti ilə yanaşı, YPX əməkdaşları da tez-tez onları yoxlayacaq. Odur ki, dövlət əmlakı olaraq ona ziyan vurularsa, şəxs məsuliyyət daşıyacaq."

X.Nəcəfov bildirib ki, artıq 6 ədəd maket hazırdır və müxtəlif yerlərdə quraşdırılacaq. "Bu mobil maketlər Bakı-Şamaxı, Bakı-Quba, Bakı-Qazax və s. yollarda quraşdırılacaq. Əslində bu, sürücünün özü üçün faydalıdır. DYP-nin həyata keçirdiyi bütün tədbirlər yol-nəqliyyat hadisələrinin qarşısını almaq üçündür. Ola bilər ki, sürətlə hərəkət edən sürücü bunu görərkən sürətini azaldar və qarşıda törədə biləcəyi qəzadan da yan qaçar".

**DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Kamran Əliyev** "Qafqazinfo"ya bildirib ki, sözügedən maketlər profilaktik tədbir məqsədilə quraşdırılıb: "Məqsəd də odur ki, sürücülər həmin maşınları görəndə, doğru zənn edib sürət həddini azaltsınlar, qayda pozuntusuna yol verməsinlər. Hazırda insanlar bir-birinə bu maketlərin yerini deməyə çalışır. Daha düşünmürlər ki, qarşı tərəfin həyatı üçün təhlükəli vəziyyət yaradırlar. İnsanları çaşdırır, inzibati məsuliyyətə cəlb olunmasına sövq edirlər. Ancaq bilməlidirlər ki, bu gün həmin ərazidə maket quraşdırılıbsa, 2 saat sonra onun yerinə həqiqi avtomobil yerləşdirilə bilər. Ona görə də kimsə yolda YPX maketi gördüyü təqdirdə tez onun koordinatlarını sosial şəbəkələrdə paylaşmamalıdır". Şöbə rəisi sosial şəbəkələrdə maketlərdən birinin küləkdən aşdığı əks olunmuş fotoya da münasibət bildirərək hadisənin Türkiyədə baş verdiyini vurğulayıb.

YPX avtomobilləri maketlərinin effektiv olmayacağı fikirləri də var. **Avtosfer.az saytının baş redaktoru Elməddin Muradlı** "Yeni Müsavat"a deyib ki, belə fikirləri işlədənlər nəqliyyat təhlükəsizliyindən məlumatsız olanlardır: "Hamı tökülüşüb DYP avtomobillərinin maketini tənqid edir. Əslində, burada tənqid ediləsi bir tərəf varsa, o da bizim yola çıxmağa yaramayan, hər gün qayda pozan sürücülərimizdir. Qoy onlar utansın. Utansınlar ki, yol polisi şüurlu insana taxta parçası ilə nəsə demək istəyir, sürət həddini aşmağın qarşısını alacaq. Qoy onlar utansın ki, şüurlu insan özünü, ailəsini düşünmür, amma taxta parçasını görəndə qorxur. Çoxları deyir, Avropada bundan çoxdan istifadə ediblər, nəticəsi yoxdur. Hardan bilirsən yoxdur? Necə yoxdur ki, dünyada bu cür maketlərdən geniş istifadə olunur və fərqli formaları tətbiq edilir? Bildiyinizi danışın, bilmədiyinizi də öyrənin!"

Elməddin Muradlı YPX avtomobili maketlərinin əsas magistral yollarla yanaşı, böyük şəhər və kəndlərdə də quraşdırılmasının tərəfdarı olduğunu açıqlayıb.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019

# 4 dost dənizdə boğuldu- Xəzərin altında nə baş verir?

## Suya girən hər kəs ayaqlarının sanki dənizin içərilərinə tərəf çəkildiyini hiss edir; Xəzər sahillərinin zəbti vətəndaşları uyğun olmayan çimərliklərə yönləndirir...

**Sabunçu rayonu, Kürdəxanı çimərliyində 4 nəfər boğularaq ölüb. Sahildə futbol oynayan 8 gənc daha sonra çimmək üçün dənizə girib. Bu zaman dənizdə baş verən burulğan gəncləri sahildən uzaqlaşdırmağa başlayıb. 8 gəncdən 4-ü xilas edilsə də, 1992-ci il təvəllüdlü Əli Cavadov, 1991-ci il təvəllüdlü Murad Əzizov, 1991-ci il təvəllüdlü Kamran Hacıquliyev və Balababa Babayev dənizdə boğulublar. Hər 4 gəncin cansız bədənləri sudan çıxarılaraq yaxınlarına təhvil verilib.**



İyulun 28-də Xəzər sahillərində istirahətdə olanlar deyirlər ki, həmin gün dənizdə güclü axın müşahidə ediblər. Suya girən hər kəs ayaqlarının sanki dənizin içərilərinə tərəf çəkildiyini hiss edib. Yay mövsümü ərzində, xüsusən şərq küləyinin cənub küləyi ilə əvəzləndiyi saatlarda belə güclü axınlar müşahidə edilir. Belə axınlar zamanı suda hətta üzmək bacarıqları olanlar üçün də təhlükəli vəziyyət yaranır. Adi günlərdə Xəzərdə normal üzə bilənlər küləyin istiqamətinin əks tərəfə dəyişməsi ilə müşahidə edilən güclü axınlar zamanı daha çox səy göstərməli olurlar.

Xəzərin bu cür xüsusiyyətlərini bilməyənlər şərq küləyinin cənub küləyi ilə ( və ya əksinə) əvəzləndiyi günlərdə çimərliklərdə xüsusi olaraq ehtiyatlı davranmalıdırlar. Artıq eyni səbəblərdən Xəzərin İran sahillərində çimərliklərə iyulun 31-nə qədər girmək qadağan olunub. Qadağa İranın şimalında, Mazandaran vilayətində qüvvədədir. Bunu İranın Mazandaran vilayəti sahillərində dənizdə batma hallarına qarşı mübarizə komitəsinin sədri Nəqi Kərimian deyib. N.Kərimianın sözlərinə görə, Mazandaran vilayətində 60 ərazidə qadağa işarəsi olan qara bayraq sancılıb. Qadağa bu il çimərlik mövsümündə Xəzər dənizinin Mazandaran sahillərində 10-dan çox şəxsin ardıcıl boğulmasından sonra qüvvəyə minib.

Xəzərin Azərbaycan sahillərində də vəziyyət bu baxımdan ürəkparçalayandır. Bu il yay mövsümü başlayandan dənizdə boğulanların sayı hər həftə artır. Son bir həftədə Kürdəxanıda 4 nəfər, Xəzər və Abşeron rayonlarındakı qeyri-çimərlik ərazilərdə 2 nəfər batıb. Əvvəlki həftə 12 yaşlı Bayram Kərimli Novxanı çimərliyində boğulub. Elə həmin gün Bilgəh çimərliyində 2 nəfər boğulub, bir nəfər isə itkin düşüb. Bundan başqa, 4 nəfər də boğulma təhlükəsi ilə üzləşib, xilasedicilər onları son anda xilas edə bilib. Neftçalada 3 nəfər dənizdə boğulub. Hadisə günorta saatlarında rayonun Həsənabad qəsəbəsində baş verib. 26 yaşlı Fariz Alkişiyev, 29 yaşlı Fərid Babayev, həmçinin 27 yaşlı Şəhriyar Nəcəfov birlikdə dənizdə çimərkən batıblar. İyulun 21-də isə Azərbaycan Texnologiya Universitetinin 3-cü kurs tələbəsi Fərman İsaqov dənizdə boğulan xalası oğlunu xilas etmək istəyərkən batıb. Bakının Sabunçu rayonu ərazisindəki dənizdə isə bir nəfər qeyri-çimərlikdə üzərkən boğulub. Sonradan aparılan araşdırma nəticəsində məlum olub ki, boğulan şəxs 19 yaşlı Sadiq Abbasovdur. 22 yaşlı Azərbaycan vətəndaşı Andrey Xaritonov da iyulun 21-də dostları ilə birlikdə Buzovna qəsəbəsindəki "Zağulba" çimərliyində ehtiyatsızlıq ucbatından boğulub. Eləcə də Astara rayonunda bir nəfər qeyri-çimərlik sahəsində, dənizdə çimərkən boğulub.

Suda boğulanların statistikasındakı uşaqlar və yeniyetmələr çoxluq təşkil edir. Boğulanların sayının bu qədər artmasına səbəb valideyn nəzarətsizliyi, insanların özlərinə qarşı məsuliyyətsizliyi, yoxsa dənizdə baş verən ekoloji proseslər, küləkli hava nəticəsində yaranan axınlardır?

Mütəxəssislər bildirir ki, bəzən boğulan şəxslər daha yaxşı üzmək qabiliyyəti olanlardır. Burada psixoloji amil təsir edir və şəxs özünə güvənərək daha dərinliyə gedir, nəticədə faciə baş verir. Digər əsas səbəblərdən biri kimi qıcolma göstərilir. Mütəxəssislər bildirir ki, əsasən epilepsiyası olan şəxslərdə dənizdə qıcolma qaçılmaz olur. Bundan başqa, bədənində mikroelementlər çatışmadıqda, eləcə də suda üzən insanın bədəninin soyuması, əzələlərin dincəlmədən uzunmüddətli işləməsi, suyun hərarətinin kəskin enməsi nəticəsində də qıcolmalar yarana bilir.

**Xəzər dənizi üzrə mütəxəssis, ekoloq İslam Mustafayev** mövzu ilə bağlı "Yeni Müsavat"a bu fikirləri açıqlamışdı.

**Sitat:** "Bu il yay mövsümü daha küləkli keçir. Bunun nəticəsində dənizdə geoloji proseslər gedir, axınlar daha çox dəyişir, burulğanlar əmələ gəlir, su dərinlikləri yaranır. Çox təəssüf ki, çox hallarda bu dərinləşmə tədricən deyil, birdən baş verir ki, bu da çox təhlükəlidir.

Lakin dənizdə boğulanların sayının artmasını insan faktoru ilə əlaqələndirirəm. Demək olar ki, bu məsələdə məsuliyyətsizlik, uşaqların nəzarətdən kənar qoyulması, üzə bilməmək və yaxud təhlükəli yerlərdə üzmək, xilasedicilərin xəbərdarlıqlarına baxmayaraq, kənara çıxmaq, belə hallarda faciə qaçılmaz olur. Küləkli havada dənizə girmək, ümumiyyətlə, olmaz. Çünki külək dalğaları vurur və o da özü ilə bərabər ətrafdakı əşyaları, hətta insanı dənizin dərinliklərinə aparır".

Vətəndaşların çimmək üçün yararsız çimərlik ərazilərinə üz tutmaları da başqa bir söhbətin mövzusudur. Xəzər sahilləri illərdir ki, kilometrlərlə uzanan daş hasarlarla bağlanmaqla zəbt olunub. Zəbt olunan ərazilər isə, bir qayda olaraq, istirahət üçün uyğun şəraiti olan yerlərdir. Ona görə də vətəndaşlar daha uyğunsuz çimərliklərə üz tutmaq məcburiyyətində qalırlar. Beləliklə, Xəzərdəki ekoloji durumla yanaşı, Xəzər dənizinin sahilində ictimai çimərliklərin sayının getdikcə azalması, özəl, pullu çimərliklərin isə əksinə, sayının artması problemi qalmaqdadır.

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Ticarət və Xidmət Departamenti** paytaxtdakı çimərlik ərazilərinə və sahilyanı zonalara girişin pulsuz olması barədə dəfələrlə açıqlama verib. Bu açıqlama hasarlanaraq zəbt olunan ərazilərə şamil olunmur. Digər tərəfdən, BŞİH-in çağırışlarına çox az hallarda özəl çimərliklər əməl edir. Bu, azmış kimi, özəl və ictimai çimərliklərə nəzarət edənlər qanunsuz olaraq öz məkanlarına qapılar, şlaqbaumlar yerləşdirir. Nəticədə ictimai çimərliklər gözlə görünəcək dərəcədə azalır və istirahət etmək istəyənlər məcbur olaraq qeyri-uyğun və ya özəl çimərliklərə üz tutmaq məcburiyyətində qalırlar. Qeyd edək ki, hələ 2017-ci ildə Bakıda 6 özəl, 6 ictimai, Xaçmazda 2 özəl, 2 ictimai, Lənkəranda 2 özəl, 1 ictimai, Astarada 1 özəl, 1 ictimai çimərliklərin yaradılması planlaşdırılırdı. Lakin məsələ bu günə qədər həllini tapmayıb. Odur ki, Xəzər "əjdaha"ya dönüb vətəndaşları udmaqdadır.

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Qalmaqallı ayaq videosuna görə tənqid olunan həkim danışdı

## "Qarabağ veteranıyam, 6 il döyüşmüşəm, niyə üzərimə bu qədər gəlirlər?"

**Bu günlərdə Bakıda fəaliyyət göstərən "Turan" klinikasının cərrah-fleboloqu İlham Məmmədovun reklamına hesablanaraq çəkilmiş video qalmaqala səbəb olub. Belə ki, sosial şəbəkələrdə özünü fotomodel kimi təqdim edən Səbinə Sultanova pasiyent qismində açıq-saçıq geyimdə müayinə masası üzərinə çıxıb. O, həkimi tərifləyən zaman donunu yuxarı qaldırır və açıq-saçıq mənzərə yaradır.**



Beləliklə, açıq-saçıq geyimləri və vinelərin videolarında yer alması ilə izləyici toplayan Səbinə Sultanova adlı xanımın "İnstagram" izləyicilərini cəlb etmək üçün hesablanan reklam videosu həkimin ciddi tənqid olunmasına səbəb olub. Qeyd edək ki, həmin videogörüntüdə həkimin özünün də müayinənin necə aparılması ilə bağlı fikirləri yer alıb.

**Məsələ ilə bağlı cərrah-fleboloqu İlham Məmmədov**un rəyini öyrənməyə çalışdıq. "Yeni Müsavat"a danışan həkim aşağı ətrafların dopler müayinəsinin ayaq üstə aparıldığını qeyd edərək, özünə haqq qazandırmağa çalışıb: "Bu barədə istənilən cərrah həkimdən soruşa bilərsiniz. Aşağı ətrafların dopler müayinəsi ayaq üstə aparılır. Müayinə topuqdan başlayıb, qasıq nahiyəsində bitir.

Sosial şəbəkələrdə həkimlər artıq doğuş videolarını çəkib paylaşır, bu barədə tənqidi fikirlər bildirilmir. Amma anlaya bilmirəm ki, niyə mənə qarşı bu qədər tənqidlər bildirilir, həmin video paylaşılır".

Həkim özünü fotomodel kimi təqdim edən xanımın hər zaman açıq-saçıq geyim tərzində olduğunu da diqqətə çatdırıb: "O xanım həmişə o cür açıq-saçıq tərzdə geyinir, yeni tərzi bu cürdür. Əgər onun "İnstagram" səhifəsinə girib araşdırsanız, özünüz də bunun şahidi olardınız. Hər halda xanım bundan daha yaxşı bir video çəkib paylaşa bilərdi.

Bir həkim kimi bu cür videoya özüm də yaxşı baxmıram və bu mənə çox pis təsir edir. Mənim profilimə baxsanız görərsiniz ki, mən o videonu paylaşmamışam. Sadəcə, xanımın köməkçisi həmin videonu çəkdi, səhifəsində paylaşdı, daha sonra yığışdırdılar. Buna baxmayaraq, bəzi saytlar hələ də onu tirajlayır. Həkimlik peşəm ilə bağlı dünyanın bir çox ölkəsində olmuşam, lakin bu cür olayla ilk dəfə olaraq Azərbaycanda rastlaşıram".

Həkim İlham Məmmədov ona qarşı olan tənqidləri qəbul edə bilmədiyini, zamanında Qarabağ döyüşlərində iştirak etdiyini və Qarabağ veteranı olduğunu da qeyd edib: "Mənim səhifəmə girib baxa bilərsiniz ki, mən Qarabağ veteranıyam, 6 il döyüşlərdə iştirak etmişəm. 1997-ci ildən isə həkimlik peşəsi ilə məşğulam".

Həkimin sözlərinə görə, məlum qalmaqala səbəb olan videoya görə Səhiyyə Nazirliyindən və yaxud çalışdığı klinikadan heç bir reaksiya bildirilməyib.

Bir faktı da qeyd edək ki, həkim İlham Məmmədov zamanında Qarabağ döyüşlərində iştirak etdiyini və Qarabağ veteranı olduğunu desə də, internet resuslarında, eləcə də "Fascebook" profilində bununla bağlı hər hansı məlumata rast gəlmədik. Həkim barəsində dərc edilən avtobioqrafiyada isə qeyd olunur ki, o, 1993-1996-cı illərdə 1 saylı klinik xəstəxananın cərrahiyyə və reanimasiya şöbələrində orta tibb işçisi kimi çalışıb, 1996-cı ildə Azərbaycan Tibb Universitetinin müalicə - profilaktika fakültəsini bitirib, 2001-2003-cü illərdə "N" saylı hərbi hissədə tibb məntəqə rəisi və "N" saylı hərbi hospitalda həkim-cərrah işləyib.

**Bəs həkim etikası baxımından bu cür reklam xarakterli videonun çəkilib paylaşılması nə dərəcədə doğrudur?**

**Həkim Vaqif Qarayev** sualımıza bu cür cavab verdi:

"Mən şəxsən həmin videoda qeyri-adi heç nə görmədim. Yeni damarların dopler müayinəsi düzgün şəkildə aparılır. İnternet resurslarında bu barədə araşdırma aparsanız, qarşınıza sonsuz sayda şəkillər çıxacaq. Lakin bu cür video mentalitetimizə yaddır. Yeni gənc bir xanımın paltarını yuxarı qaldırması və sairə. Amma bir daha qeyd edirəm ki, tibbi baxımdan normal müayinə bu cür aparılmalıdır. Amma bunu niyə reklam edir paylaşırlar, bu tamam başqa mövzudur. Burada xanımın özünü, yoxsa həkimi reklam etdiyi maraqlı deyil. Mənə maraqlıdır ki, ictimaiyyət bu videoya niyə bu qədər reaksiya bildirir? Burada nə var axı?

Bir məsələni də qeyd edim ki, pasiyentin ixtiyarı var tələb etsin ki, onun xəstəliyi, müalicəsi, müayinəsi haqqında heç bir məlumat ictimailəşdirilməsin. Yox, əgər pasiyent istəyirsə, burada qanunsuz heç nə yoxdur".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 158 (7328) 30 iyul 2019

# Qurban Qurbanovun ìspandìllì "Qarabağ" sınağı...

## "Qarabağ"ın ÇL təsnifat mərhələsində keçirdiyi üç görüş haqda ümumi olaraq xoş sözlər demək mümkündür, sabah klub "Dundalk"la cavab görüşünə çıxır...



**Sabah Çempionlar Liqasının 2-ci təsnifat mərhələsinin cavab oyunu çərçivəsində "Qarabağ" İrlandiya çempionu "Dundalk"la qarşılaşacaq. Komandaların İrlandiyadakı görüşündə qalib müəyyənləşməyib: 1:1. "Dalğa Arena"da keçiriləcək "Qarabağ" - "Dundalk" matçı saat 21:00-da başlayacaq.**






İrlandiya çempionu artıq dünən axşamdan Bakıdadır. İrlandiya mətbuatı "Dundalk"ın Bakıya tam heyətlə gəldiyini yazıb.

***

Maraqlananlar üçün qeyd edək ki, iyulun 30-da "Azərsun Arena"nın mətbuat zalında baş məşqçi Qurban Qurbanov saat 18:15-da media mənsublarının önünə çıxacaq. Komandamızın son məşqi isə saat 18:30-də Suraxanıda yerləşən klubun bazasında baş tutacaq. Məşqin ilk on beş dəqiqəsi mətbuat və azarkeşlər üçün açıq olacaq. "Dundalk"ın baş məşqçisi isə saat 19:30-da "Dalğa Arena"nın mətbuat zalında jurnalistlərin suallarını cavablandıracaq. İrlandiya təmsilçisinin son məşqi isə saat 20:00-da qarşılaşmanın keçiriləcəyi stadionda baş tutacaq.

***

"Qarabağ"ın ÇL təsnifat mərhələsində keçirdiyi üç görüş haqda ümumi olaraq xoş sözlər demək mümkündür. Klubun yeni transferlərinin tam heyətdə meydana çıxmaması səbəbindən Qurban Qurbanovun seçimləri haqda birmənalı fikir söyləmək tezdir. Yadımdadır ki, ötən il ilk oyunlarda artıq yeni transferlərə tənqidlər başlamışdı. Zaman-zaman bu tənqidlərlə klub rəhbərliyi razılaşmasa da, o transferlərdən, deyəsən, ikisi hazırda klubda qalıb. Simeon Slavçev və Abdullah Zubir. Yakub Jezniçak, Reynaldo və İnnosent Emeqara ilə klub artıq vidalaşıb. Donald Geryenin "Qarabağ"dan ayrılması isə klub üçün itkidir. Gerye adını çəkdiyimiz transferlərdən bir il əvvəl Ağdam klubuna gəlmişdi. Həm yarımmüdafiədə, həm müdafiədə oynaya bilən futbolçu idi. "Qarabağ"a hələ xeyir gətirə bilərdi. Amma nəsə pul söhbətinə görə klubdan narazı ayrıldı. Beləliklə, ötən sezonda kluba gələn Almeydanı və Ozobiçi nəzərə almasaq, klubda dəyişikliklər olub və zənnimizcə, işlər, hələ ki, heç də pis getmir.

28 yaşlı Xayme Romero Rodrigez İspaniyanın "Albasete", "Saraqosa", "Real B", İtaliyanın "Bari" və "Udineze" klublarında oynayıb. Onun oyunu "Qarabağ"ın hücum xəttini möhkəmlədib demək də yəqin tezdir. Braziliyalı Ailton Silvanın da yarımmüdafiədə xüsusi fəallığı görünmür. Ümumiyyətlə, Qurban Qurbanovu bu mövsüm ispandillilərlə (braziliyalılar da ispandilli hesab olunur və klubun əsas qapıçısı da braziliyalıdır) ciddi sınaq gözləyir. Miçel və Danidən sonra onların sayı klubda artıb və bunun "Qarabağ" üçün xeyirli olacağına inanırıq.

***

"Dundalk", klubun stadionundan da göründüyü kimi, İrlandiya çempionu olsa da, xüsusi çəkili klub deyil. Baxmayaraq ki, beynəlxalq uğurları da var, "Qarabağ" üçün çətin rəqib deyildi. İlk oyunda "Qarabağ" xeyli qol imkanlarını qaçırdı. Yeri gəlmişkən, həmin oyundan ən zəif təsir bağışlayan və real qol imkanlarını qaçıran bolqarıstanlı legioner Slavçev olsa da, Qurban Qurbanov onu sonadək nədənsə meydanda saxladı. Qərəzli görünmək istəməzdik, amma belə də nəticəyə gəlmək olardı ki, "Qarabağ" klubu görüşün intriqasını Bakıya saxlamaqda maraqlı kimi görünürdü. Bəlkə də belə yaxşı idi...Qeyd edək ki, Bakıda qolsuz bərabərlik "Qarabağ" üçün sərfəli nəticədir.

***

Rəqiblərimiz Bakıya böyük ümidlərlə gəlirlər. "Bu, böyük qələbə idi. Aşkar görünür ki, səfər matçı bizim üçün asan olmadı. İkinci hissənin əvvəlində əla oynadıq. Vacib qələbəyə görə şadam". Qol.az xəbər verir ki, bu sözləri "Dundalk"ın futbolçusu Patrik Makeleni İrlandiya çempionatının 27-ci turunda "Sent Patriks"ə qalib gəldikləri (1:0) oyun haqda danışarkən deyib. 26 yaşlı yarımmüdafiəçi klubun rəsmi saytına açıqlamasında "Qarabağ"la Bakıda keçiriləcək cavab matçı barədə də danışıb. Ağdam klubu ilə matçın vacibliyini vurğulayan irlandiyalı futbolçu komanda yoldaşlarının görüşə hərtərəfli hazır olduğunu bildirib: "Əgər "Dundalk"ın üzvüsənsə, yaxşı oyunçu olmalısan. Buna görə də düşünürəm ki, komandamızda hamı eyni səviyyədədir, hamı peşəkardır. "Qarabağ"la səfər oyunu çətin olacaq. Ancaq bu faktdır ki, biz 2016-cı ildə Çempionlar Liqasının 3-cü mərhələsində oynamışıq. İndiki heyətdən 9 nəfər həmin matçların iştirakçısıdır. Azərkeşlərimizin bizdən gözləntisi böyükdür. Hamımız bu oyunu səbirsizliklə gözləyirik. Ona görə də "Qarabağ"a qarşı ikiqat güc sərf etməliyik".

"Bu, böyük qələbədir. Avrokubok oyunlarından sonra çempionat matçları çətin keçir. Amma düşünürəm ki, futbolçularımız bu işin öhdəsindən mükəmməl gəldilər. Görüşün startından sonuncu dəqiqəyə kimi əsl peşəkarlıq nümayiş etdirdilər. Layiqli 3 xal qazandıq". Bunu isə "Dundalk"ın məşqçisi Ruaydri Higgins klubun rəsmi saytına açıqlamasında deyib. Səfər qələbəsini dəyərləndirən baş məşqçi "Qarabağ"la cavab matçına da toxunub: "Artıq Bakıya daha inamlı gedə bilərik. Özümüzə güvənirik. Komanda avrokubok matçına tam hazırdır. Futbolçular özləri də bunu sübut etdilər".

"Dundalk"la ilk oyununda zədələnən Maksim Medvedev cavab matçında meydana çıxa bilər. İdman saytları xəbər verir ki, 29 yaşlı müdafiəçi artıq zədəsini sağaldıb. Komanda ilə birlikdə məşqlərə başlayan futbolçunun İrlandiya çempionuna qarşı oynayacağı istisna olunmur.

❑ **Orxan ƏLİYEV, "Yeni Müsavat"**













# YENİ MÜSAVAT

## Son səhifə

*N 158 (7328) 30 iyul 2019*


# Dünyanın ən ağıllı iti ölüb

Cənubi Karolina ştatında dünyanın ən ağıllı iti ölüb. Çeyzer ləqəbli it minə yaxın söz bilirdi və buna görə də dünyanın ən ağıllı iti sayılırdı. Çeyzerin sahibi, keçmiş psixiatr Con Pilli onun məşqi üçün unikal bir metod kəşf etmişdi. O, iti 2004-cü ildə almışdı və 3 il ərzində gün boyu 4-5 saat boyunca onu məşq etdirdi. Pilli itə müxtəlif əşyaların şəklini göstərir və onların adını 40 dəfə deyirdi, sonra da həmin əşyanı gizlədib, itə onu tapmasını deyirdi.



Kişi tədris üçün 800 yumşaq oyuncaq, 116 şar və müxtəlif plastik əşyalardan istifadə edirdi. Nəticədə Çeyzer 1022 söz öyrəndi. Pillinin qızı ona iti məşq etdirməkdə yardımçı olurdu. O da bildirmişdi ki, Çeyzer bu əşyaları özü də seçə bilir. İt 15 yaşında təbii səbəblərlə görə dünyasını dəyişib.



# 1.6 kilo zinət əşyası udub

Hindistanın Şərqi Benqaliya ştatının sakini 1.6 kiloqram ağırlığında zinət əşyası və digər əşyalar udub. Bu barədə "Hindustan Times" nəşri xəbər verib. 22 yaşlı Runi Xatun qarnındakı ağrılar və qusmaya görə xəstəxanaya düşüb. Hər dəfə qida qəbulundan sonra onda ürəkbulanma başlayırdı. Rentgen göstərib ki, qadının qarnında metal əşyalar var.

Cərrahiyyə əməliyyatı nəticəsində onun mədəsindən 69 boyunbağı, 80 sırğa, 46 sikkə, 8 medalyon, burun üçün 11 üzük, 5 ayaq brasleti və saat çıxıb. Tapılan əşyaların ümumi məbləği 53 min funt-sterlinq olub.

Qadın həkimlərə etiraf edib ki, bu əşyaları udub. "Biz fərq etdik ki, zinət əşyaları bir-bir itməyə başlayır. Amma biz bu barədə ondan nəsə soruşanda heç nə demir və hər dəfə ağlayırdı". Həkimlər pasiyenti psixiatrın yanına göndəriblər.

2018-ci ildə xəbər verildi ki, Hindistandan olan bir qadının qida borusunda zinət əşyaları, qoz və boltlar qalıb. Həkimlər müəyyənləşdirdilər ki, qadın akufaqiyadan əziyyət çəkir. Bu, xəstədə daim sərt əşyaları udmaq istəyindən xəbər verir.

# İnsan təqaüd yaşına çatanda... xoşbəxt olur



Amerikalı psixoloqlar bu günlərdə 2185 nəfər arasında sorğu keçirərək onların xəyal qırıqlıqları ilə bağlı maraqlı nəticə əldə edib. Məlum olub ki, insanlar arasında evliliklərinə görə 12 faiz, sahib olduqları uşağa görə 14 faiz xəyal qırıqlığı keçirir. Araşdırmada ortaya çıxan ən yaxşı nəticə odur ki, yaş irəlilədikcə həyat gözəlləşir. Rəyi soruşulanların 48 faizi həyatlarının "xəyal etdiklərindən" daha pis olduğunu söyləyib. Bunların arasında təqaüdçü olanların 26 faizi isə deyib ki, təqaüdə çıxanda hər şey daha gözəl olur. Onlar təqaüd dövründə daha yaxşı həyat təcrübələri əldə etdiklərini, daha çox gəzdiklərini və daha çox insanla tanış olduqlarını deyib. Sorğuda iştirak edənlərin 58 faizi uşaq sahibi olmağı həyatda zənginliyin açarı olaraq gördüklərini deyib. Zənginliyin açarı olaraq ikinci sırada evlilik, üçüncü sırada bir ev sahibi olmaq, yaxşı bir iş və yoldaşlarla ictimai fəaliyyətlər dayanır.

# Oğurladığı pulu 12 il sonra geri qaytardı

12 il əvvəl bir mağazadan oğurluq edən adam aradan uzun illər keçməsinə baxmayaraq, götürdüyü pulları geri qaytarıb. Amerikada yaşayan Sombook Vu adlı oğlan 12 il əvvəl bir mağazaya girib. O, silahla mağaza sahibini qorxudub və ondan 300 dollar alıb. Daha sonra hadisə yerindən qaçan oğlan peşman olub. 12 il boyunca hər gün etdiyi oğurluğu xatırlayan və utanan Vu pulları geri qaytarmağa qərara verib. O, bir zərfə 400 dollar qoyub və məktubla bərabər mağaza sahibinin oğluna verib. Zərfi təhvil verdikdən sonra mağazadan ayrılan Vu məktubda bu sözləri yazıb: "12 il əvvəl bu mağazadan oğurluq eləmişdim. O vaxtlar narkotikdən istifadə edirdim deyə məcbur qalmışdım. Artıq narkotikdən istifadə etmirəm. Bu zərfdə pullar var. Xahiş edirəm onları qəbul edin. Düşünürəm ki, məni bağışlayacaqsınız".

Mağaza sahibi oğrunun pulu geri qayıtmasını onu təəccübləndirdiyini və onu bağışlamağa hazır olduğunu bildirib.

# Bunları bilirsinizmi?

* Çox möhkəm asqıranda, qabırğalardan biri qırıla bilər.
* Asqırmağın qarşısını almaq boyunda damarın zədələnməsinə səbəb ola bilər.
* Donuzlar heç vaxt başlarını yuxarı qaldıra bilmir.
* Dünya əhalisinin, demək olar ki, 50 faizi telefondan istifadə etmir.
* 1 saat qulaqlıqdan istifadə qulaqdakı mikrobların sayını 700 faiz artırır.
* Barmaq izləri kimi hər insanın özünəməxsus dil izi də var.
* Bethoven son əsərini kar halda bəstələyib.
* Eyfel qülləsinin hazırlanmasında 6400 ton ağırlığında 18.100 ədəd dəmir parçasından istifadə edilib.
* İnsan orqanizmindəki bütün damarların uzunluğu 15 min km-dir.
* Bir futbolçu topa hər dəfə başı ilə vuranda, beynində min hüceyrə ölür.
* İnsanın başında orta hesabla 30.000-100.000 ədəd saç var. Hər gün onlardan 100-ü tökülür.
* Amerikalıların 60 faizi ölkələrini xəritədə tapa bilmir.
* Dünyadakı kişilərin 10, qadınların isə 8 faizi solaxaydır.
* Qədim Çində valideynlərin ad günündə verilən ən yaxşı hədiyyə tabut hesab olunurdu.
* Günəş sisteminə daxil olan bütün planetləri bir tək Yupiterin içinə sığdırmaq mümkündür.
* Britaniya kraliçasının imperiya tacında düz 1783 brilyat qaş düzülüb. Onların arasında ən məşhuru 309 karatlıq "Afrika ulduzu"dur.
* Heç bir kağız vərəqini yeddi dəfədən artıq bərabər qatlamaq mümkün deyil.
* Kişilər qadınlara nisbətən üç dəfə çox intihar edirlər. Ancaq qadınlar kişilərdən üç dəfə artıq intihara cəhdi edirlər.
* Dünyada ən çox poçt şöbəsi olan ölkə Hindistandır. Orada 152 792 poçt şöbəsi fəaliyyət göstərir.
* 1950-ci ildə Çində orta insan ömrü 35 il olduğu halda, 2000-ci ildə bu rəqəm 70-ə çatıb.
* 39-cu ABŞ prezidenti Cimmi Karter dəqiqədə 2000 söz sürətlə oxumağı bacarırmış.

# 108 yaşlı qadın ad gününü keçirdi və sirrini açıqladı

**ABŞ-ın Bakli şəhərindəki Qocalar Evində 25 iyulda Ada Hollvort adlı qadın 108 yaşını dostlarının və qohumlarının əhatəsində qeyd edib. Onun 78 yaşlı qızı Jan OKonnor anasının uzunömürlülüyünün sirrini açıb: "O, heç vaxt siqaret çəkməyib və spirtli içki içməyib. Üstəlik, hər zaman qayğıkeş ana olub".**




Hollvort hər zaman xeyriyyəçiliklə məşğul olub və insanlara yardım edib. Uzunömürlü qadının böyük nəvəsi Daz Kanliff əlavə edib ki, onun nənəsi bir çox müsbət keyfiyyətlərlə yanaşı, eyni zamanda yüksək yumor hissinə malikdir. Əri 1980-ci ildə dünyasını dəyişəndən sonra Hovard Hallvort 1980-ci ildə ailəsinə yaxın olan Çester şəhərinə köçüb. 2019-cu ilin əvvəlində britaniyalı qadın qocalar evinə yerləşib. Onun iki qızı, beş nəvəsi və üç nəticəsi var.

6 iyulda xəbər verilmişdi ki, Cənubi Karolina ştatında yaşayan 114 yaşlı Aleliya Merfi danışıb ki, Allaha inamı və aktiv həyat tərzinə görə bu qədər yaşayıb. O, 2019-cu ilin yanvarında, 114 yaşlı Lessi Braunun ölümündən sonra Amerikanın ən yaşlı sakini olub.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050